# YENİ AZƏRBAYCAN

23 may 2026-cı il, şənbə
№ 090 (7157)
Qiymıəti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan şirin nemət yoxdur!

# Cənubi Qafqazın lideri...



## Avropa regional məsələləri Azərbaycan Prezidenti ilə müzakirə edir

Bax səh. 2

## Azərbaycanın şəhərsalma təcrübəsi dünyaya nümunədir

Bax səh. 2

## Avropanın strateji cəzası...

Avropa Parlamentinin Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirməsi yeni məsələ deyil. 44 günlük Vətən müharibəsindən sonra bu təşkilat tərəfindən ölkəmizə qarşı qəbul edən qətnamələrin, belə demək mümkünsə, sayı-hesabı yoxdur. Avropa Parlamenti dövlətimizin öz ərazilərini işğaldan azad etməsini, Qarabağ üzərində öz suverenliyini təmin etməsini, erməni separatizminin kökünü kəsməsini həzm edə bilmir.

Bu gün Avropa dəyərlərinin aşınmaya məruz qalması təəssüf doğurur. Avropa təsisatları yarandıqları zaman xüsusilə beynəlxalq hüquq, insan haqları və demokratiya kimi prinsipləri əsas götürüblər. Lakin həmin təşkilatların fəaliyyətində bu prinsiplərə riyaət olunmur. Bu təşkilatlar hazırda beynəlxalq güclərin və lobbilərin diqtəsi ilə işləyir. Yəni, fundamental dəyərlər onlar üçün arxa plana keçirilib. Avropa Parlamentinin qəbul etdiyi qətnamələr də bunun sübutudur. Avropa Parlamenti kimi islamafob və türkəfob dairələrin əlində alət olan qurumların qəbul etdiyi sənədlərin heç bir hüquqi qüvvəsi yoxdur. Bu təşkilat hər zaman insan hüquqları və demokratiya pərdəsi altında Azərbaycanı hədəfə alıb. Nəzərə alaq ki, Ermənistanın 30 illik işğalı dövründə Avropa Parlamenti bu ölkənin işğalçı siyasətini pisləyən, 1 milyona qədər azərbaycanlı qaçqın-köçkünün hüquqlarını müdafiə edən sənədlər qəbul etməyib. Amma indi bu qurum Ermənistanla əməkdaşlığa böyük önəm verir, hazırda həbsdə olan erməniəsilli müharibə canilərini müdafiə edir...

Bax səh. 4

## WUF13-də 53 mindən çox şəxs iştirak edib




Bax səh. 5

## Güclü dövlətin təmini...

Bax səh. 4

## Azərbaycan-Tacikistan iqtisadi əlaqələri yeni mərhələdə

Bax səh. 5

## Qazaxıstan və Azərbaycan daşınma qaydalarını sadələşdirdi

Bax səh. 5

## Parlament seçkisi, yoxsa vətəndaş qarşıdurması?

Bax səh. 4

## Müasir şəhərsalmanın yol xəritəsi

Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında Azərbaycan paytaxtının 2040-cı ilədək inkişafını müəyyən edən "Bakı Baş Planı"nın əsas prioritetləri, şəhərsalma yanaşmaları, nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və dayanıqlı urbanizasiya hədəfləri geniş müzakirə olunub. "2040-cı il Bakının Baş Planı - Yeni İnkişaf Dövrü" mövzusunda aparılan müzakirələrdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Mənzil İnşaatı Dövlət Agentliyi və Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə yanaşı, beynəlxalq tərəfdaşlar və məsləhətçi şirkətlərin nümayəndələri iştirak ediblər. Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəisi Read Qasımov bildirib ki, "Bakı Baş Planı 2040" paytaxtın daha yaşıl, inklüziv, dayanıqlı və qlobal rəqabətqabiliyyətli şəhərə çevrilməsini hədəfləyir. Bu çərçivədə parkların genişləndirilməsi, sahilyanı ərazilərin abadlaşdırılması, şəhər bulvarının inkişafı və məhəllə infrastrukturunun yenilənməsi daha yaşanılabilən şəhər mühitinin formalaşdırılması ilə bağlı layihələrin icrası nəzərdə tutulur ki, bütün bu tədbirlərin başlıca məqsədi sakinlərin həyat keyfiyyətinin yüksəldilməsidir.

Paytaxtın Baş Planında ekoloji dayanıqlılıq, enerji səmərəliliyi və bərpaolunan enerji həllərinin təşviqi əsas istiqamətlərindən...

Bax səh. 3



## Müharibələrin urban fəsadları

Bax səh. 6

## İran nüvə strategiyasını dəyişir?



Bax səh. 7

# Cənubi Qafqazın lideri...

## Avropa regional məsələləri Azərbaycan Prezidenti ilə müzakirə edir

Qlobal çağırışlar müasir dünya üçün yeni transformasiyalar yaratmaqdadır. Uzun illər, daha doğrusu XX əsr boyunca davam etmiş qütblərarası mübarizədə ön planda hərbi güc və ya siyasi status önəm daşısa da, yeni mərhələsini başlatdı. Cəmisi 6 il sonra yaranan situasiya bütövlükdə mənzərəni aydın şəkildə ortaya qoyur. İllərlə Azərbaycana qarşı fərqli kampaniyalar aparan, "təzyiq aparatları" vasitəsilə, ucuz və əsassız qətnamə və



zamda bu amil bir qədər arxa plana keçib. Hazırda qlobal siyasətin gündəmini təyin edən əsas faktorlardan biri və bəlkə də birincisi regional imkanlar, regional aktorlar və regional sabitləşdirici statusdur. Hazırda aparıcı güclər sırasında adları qeyd edilən Şərq və Qərb faktoru məhz onları birləşdirən regional faktorlar vasitəsilə əlaqələrini tənzimləyirlər - bu isə o deməkdir ki, qlobal siyasi məkanın gündəminin təyinatçıları məhz həmin regional sabitləşdirici satutusu daşıyan ölkələrdir.

**Yeni nizamın yeni konturları...**

Azərbaycanın son 6 ildə əldə etdiyi nailiyyətlər, uğurlar sözün əsl mənasında yeni siyasi-iqtisadi münasibətlər sisteminin formalaşmasına yol açıb. Cənubi Qafqazda yaranan yeni təhlükəsizlik arxitekturası Şərq-Qərb iqtisadi tranzit axınında böyük yeniliklərə yol açıb. Orta Dəhlizin şaxələndirilməsi, qitələrarası ticarətin sürətli sıçrayış qazanma imkanlarının ortaya çıxması, daha intensiv əlaqələrin qurulmasına töfhələrin verilməsi bunu təsdiqləyir. Bölgədə yaranan yeni sabitlik modeli Azərbaycanın hərbi-siyasi qələbəsinin nəticəsi olmaqla yanaşı, həm də davamlı iqtisadi əməkdaşlıq fəlsəfəsinə əsaslanan genişmiqyaslı regional inkişaf konsepsiyasına söykənir. Azərbaycanın təşəbbüskarı olduğu nəqliyyat və enerji layihələri regionu qlobal siyasi xəritədə vacib tranzit mərkəzinə çevirir. Xüsusilə Zəngəzur dəhlizi (TRİPP) perspektivi Şərqlə Qərbi birləşdirəcək ən təhlükəsiz, ən qısa və ən funksional xətt kimi dəyərləndirilir. Bu dəhliz təkcə fiziki nəqliyyat koridoru deyil; bu, qlobal güclərin maraqlarını kəsişdirən, sabitliyə və davamlı əməkdaşlığa əsaslanan yeni geostrateji sistemin əsas sütunlarından biridir. Rəsmi Bakı bu sistemi formalaşdırmaqla regionda müharibə risklərini minimuma endirdi və Cənubi Qafqazı qlobal iqtisadiyyatın ayrılmaz bir hissəsinə çevirdi.

**Bakının iradəsi ilə...**

Təbii ki, iqtisadi sabitləşdirici rol bu və ya digər şəkildə siyasi həyata da sirayət edir. Vaxtilə bölgə ilə bağlı fərqli maraqlardan çıxış edən siyasi dairələr, dövlətlər artıq regionla bağlı müzakirələrini Bakı ilə aparır, Azərbaycanın iradəsini əsas götürürlər. Buna misal olaraq, may ayının əvvəlində Ermənistanda keçirilən Avropa Siyasi Birliyinin VIII Zirvə görüşünün ardından köhnə qitənin bir sıra dövlətlərinin rəhbərlərinin ölkəmizi ziyarət etməsini də göstərmək olar. Bu gün Cənubi Qafqazın böyük mənada qlobal, kiçik mənada isə Avrasiya üçün əhəmiyyəti tarixdə heç bir zaman olmadığı qədər yüksəkdir. Hər bir ölkə ayrı-ayrılıqda və ya təmsil olunduğu təşkilat çərçivəsində (məsələn Aİ) Cənubi Qafqazdan şaxələnən yeni iqtisadi nizamda yer almağa çalışır. Amma hər bir ölkə də dərk edir ki, bu, Azərbaycanın iradəsindən kənar mümkün deyil.

**Fransa prezidentinin zəngi - Paris etiraf edir...**

Son 30 ilə yaxın münaqişə dövründə Azərbaycan çox haqsızlığa məruz qalıb - torpaqlarımızın ermənilər tərəfindən işğalı, ölkəmizə qarşı edilən təcavüzə loyal münasibət, uzun illər vasitəçilik adı altında fəaliyyətsizliyin nümayişi, beynəlxalq statuslu qətnamələrin icra edilməməsi və bu kimi çoxsaylı addımlar Bakının meydanda haqsızlığa qarşı tək mübarizə aparmasına yol açmışdı. Nəticədə ədalət qələbə qazandı - ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası ölkəmizin həm siyasi, həm iqtisadi müstəvidə yeni inkiqərarlarla, müəyyən destruktiv və təxribatçı əməllərlə (məsələn işğalçı ölkəyə silah satışı) Cənubi Qafqaza nifaq salmaq istəyən dövlətlər və təşkilatlar da artıq reallığı görür və dərk edir. Xüsusilə, Avropa məkanı bu rallığı qəbul edir ki, bu gün Cənubi Qafqazın lideri Azərbaycandır. Bunu Fransa prezidentinin Azərbaycan Przidentinə zəngi də təsdiqləyir. Xatırladaq ki, mayın 21-də Azərbaycan Prezidenti İlham Əliyevlə Fransa Prezidenti Emmanuel Makron arasında telefon danışığı olub. Bu barədə Prezidentin X sosial media hesabında edilən paylaşımda bildirilir ki, telefon danışığı zamanı Azərbaycan-Fransa ikitərəfli münasibətlərinin gündəliyində duran məsələlər nəzərdən keçirilib və qarşılıqlı maraq doğuran mövzular ətrafında fikir mübadiləsi aparılıb: "Biz, həmçinin regional və qlobal prosesləri müzakirə etdik".

**Neytral, ədalətli, beynəlxalq hüquqa əsaslanan...**

Bəli, Bakı artıq geniş mənada regionla bağlı siyasi dialoqun qorunması, təhlükəsizlik risklərinin idarə olunması və əməkdaşlıq mexanizmlərinin qurulması baxımından mühüm mərkəz funksiyasını icra edir. Ölkənin xarici siyasət xətti hər zaman milli maraqlar prinsipinə, mehriban qonşuluq fəlsəfəsinə və qarşılıqlı fayda modelinə əsaslanıb. Bu siyasət regionu uzun müddət təhdid altında saxlayan güc qarşıdurmalarını neytrallaşdırmağa imkan verib - Fransa dövlət başçısının regionla bağlı məsələləri Bakı ilə müzakirə etmək ehtiyacı da bunu təsdiqləyir. Bu faktor Cənubi Qafqazın "yeni inkişaf mərhələsi" kimi xarakterizə olunduğu bir dövrdə beynəlxalq güclər tərəfindən yüksək qiymətləndirilir.

Paralel olaraq Bakı həm də Şərq-Qərb geosiyasi trafikində neytral, lakin təsir gücü olan aktor kimi çıxış edir. Bu, enerji siyasətində də xüsusilə özünü göstərir. Azərbaycanın həyata keçirdiyi enerji diplomatiyası Avropa üçün enerji təhlükəsizliyi ilə bağlı yeni imkanları yaradıb. Azərbaycanın qaz ixrac etdiyi dövlətlərin sayı xüsusilə Avropada ildən-ilə artır. Bakının sadiq tərəfdaşlığı, etibarlı strateji dost davranışı isə bütün dövlətlər tərəfindən açıq kotenkstdə ifadə olunur.

**Qlobal əhəmiyyətli məsələlərin müzakirə olunduğu paytaxt**

Paytaxtımız demək olar ki, hər il müxtəlif mahiyyətli beynəlxalq tədbirlərə ev sahibliyi edir. Qlobal pandemiya dövründə davranışlarımız, kolonializmdən əziyyət çəkən ölkələrə yardımlar, qlobal iqlim dəyişikliyindən əziyyət çəkən dövlətlərin hüquqlarının müdafiəsi kimi mühüm fəaliyyət spektrləri, müasir şəhərsalma imkanlarının müzakirəsi kimi mühüm söylər Azərbaycanın beynəlxalq aləmdəki yerini müəyyənləşdirib. Bu, Bakının əhəmiyyətini, əməkdaşlıq üçün tam etimad edilən dövlət kimi qəbul olunduğunu göstərir. Müasir çağırışlar çoxtərəfliliyi təbliğ edir - xüsusilə, ticari-iqtisadi münasibətlərin diversifikasiya edilməsi ölkələrarası əlaqələrə rəngarənglik qatır. Azərbaycan bütün qlobal mühit üçün alternativ enerji və nəqliyyat marşrutu təqdim etdiyi kimi, həm də humanizm, ədalət və beynəlxalq hüquqa hörmət kimi mühüm dəyərləri təbliğ edir. Azərbaycanın siyasi praqmatizmə əsaslanan mövqeyi və regional sülh təşəbbüsləri qlobal dünya tərəfindən təqdir edilir. Bu isə Azərbaycanın regionda sülh və inkişafın əsas mənbəyi olması fikrini daha da qətiləşdirir.

*Pərviz SADAYOĞLU*



# Azərbaycanın şəhərsalma təcrübəsi dünyaya nümunədir

Çoxvektorlu xarici siyasət kursuna malik olan Azərbaycanın əksər nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələri də yüksək səviyyədədir. Ölkəmiz geniş imkanlarını təqdim etməklə həmin təşkilatların fəaliyyətinə davamlı töhfələr verir və eyni zamanda, onlardan öz həqiqətlərini dünya ictimaiyyətinin diqqətinə çatdırmaq üçün səmərəli platforma kimi istifadə edir.

Bu kontekstdə Azərbaycan-BMT əlaqələrinin genişlənməsi də məmnunluq doğurur. Bu günlərdə Prezident İlham Əliyev BMT Baş katibinin müavini Amina Mohammedi qəbul edib. Söhbət zamanı Azərbaycanla BMT arasında uzun illərdir uğurlu əməkdaşlığın həyata keçirildiyi və ölkəmizin bu təşkilatın fəal üzvü olduğu, onun proqram və tədbirlərinin icrasına mühüm töhfələr verdiyi vurğulanıb. İndiyədək BMT-nin müxtəlif mövzulara aid beynəlxalq tədbirlərinin Azərbaycanda yüksək səviyyədə təşkil olunması məmnunluqla xatırlanıb.

**Bir komanda kimi uğurlu fəaliyyət**

May ayının 17-22-də Azərbaycan paytaxtında BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) böyük uğurla baş tutub. Qəbulda dövlətimizin başçısı Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının keçirilməsi ilə bağlı göstərdiyi dəstəyə görə BMT rəhbərliyinə minnətdarlığını bildirib, tədbirin uğurlu olması üçün Azərbaycan Hökumətinin və BMT-nin Məskunlaşma Proqramının bir komanda kimi fəaliyyət göstərdiyini deyib.

BMT tərəfindən 2001-ci ildə təsis edilən Ümumdünya Şəhərsalma Forumu sürətli urbanizasiya nəticəsində şəhərlərdə yaranan çağırış və problemlərin müzakirəsi məqsədilə keçirilir. Forumun əsas koordinatoru BMT-nin Məskunlaşma Proqramıdır (UN-Habitat). İki ildən bir təşkil olunan forumda həmin dövr üçün aktual hesab edilən məsələlər müzakirəyə çıxarılır. Ölkəmizin ev sahibliyi ilə təşkil olunan WUF13 üçün aktual gündəlik müəyyənləşdirilib. Belə ki. Forum "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusunda keçirilib. Qəbulda WUF13-ün COP29-dan sonra iştirakçı sayına görə ölkəmizdə keçirilən ikinci mühüm qlobal tədbir olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev COP29 kimi Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının da uğurla təşkil edildiyini vurğulayıb.

Öz növbəsində WUF13-ün uğurla keçdiyini deyən Amina Mohammed bununla bağlı dövlətimizin başçısını təbrik edib. O, bu tədbirdə dünyanın müxtəlif ölkələrindən çox sayda yüksəksəviyyəli qonağın iştirak etməsinin dərin təəssürat hissi yaratdığını bildirib.

**UN-Habitat ilə səmərəli əməkdaşlıq**

Ölkəmizdə şəhərsalma, mənzil inklüzivliyinin təmin edilməsi dövlətin sosial-iqtisadi inkişaf strategiyasının mühüm istiqamətlərindən birini təşkil edir. Bu strateji xəttə uyğun oaraq Azərbaycan Prezidenti və Birinci vitse-prezident şəhərsalma məsələlərini daim diqqətdə saxlayırlar. Ölkəmizdə dövlət başçısının Sərəncamı ilə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması bu qətiyyətli siyasi iradəni təcəssüm etdirir.

Eyni zamanda, Azərbaycan 2022-ci ildən etibarən BMT-nin Məskunlaşma Proqramı ilə sıx əməkdaşlıq edir. Bu əməkdaşlığın nəticəsi olaraq respublikamızda uzun illər işğal altında olmuş şəhərlərdə - Ağdamda, Zəngilanda və Xankəndidə üç milli şəhərsalma forumu keçirilib. Həmin forumlarda şəhərsalma istiqamətində qazanılan uğurlar təqdim olunmaqla yanaşı, həm də yeni hədəflər müəyyənləşdirilib.

WUF13 də Azərbaycan hökuməti ilə UN-Habitat-in birgə əməkdaşlığının nəticəsi olaraq baş tutub. Forum çərçivəsində Yeni Şəhər Gündəliyinə həsr olunmuş nazirlər toplantısı, Liderlər Sammiti, qadınlar və vətəndaş cəmiyyəti assambleyaları, biznes sessiyaları, şəhər rifahı və qlobal mənzil böhranı ilə bağlı yüksək səviyyəli panel müzakirələr keçirilib. Dövlətimizin başçısı Azərbaycanın BMT-nin Məskunlaşma Proqramı ilə səmərəli əməkdaşlıq həyata keçirdiyini deyərək, ölkəmizin gələcəkdə də bu Proqramla tərəfdaşlığını davam etdirəcəyini və Ümumdünya Şəhərsalma Forumunun digər sessiyalarının işində də fəal olacağını bildirib.

**Şəhərsalmada Azərbaycan modeli - tarixiliklə müasirliyin uğurlu vəhdəti**

Qədim tarixə malik Azərbaycanda zəngin şəhərsalma ənənələri formalaşıb. Xalqımız tarixən şəhərlər yaradan xalq olub. Həmçinin paytaxt Bakının, digər şəhərlərin inkişafının, eləcə də işğaldan azad olunmuş ərazilərdə yaşayış məntəqələrinin bərpasının timsalında aydın şəkildə görmək mümkündür ki, Azərbaycanın özünəməxsus şəhərsalma ənənələri hazırda da yaşayır və daha da zənginləşir. Respublikamızda şəhərsalma konsepsiyası tarixi qorumaqla müasirləşmə prinsipinə əsaslanır. Bu gün biz paytaxt Bakının timsalında qədimliklə müasirliyin unikal vəhdətini görə bilərik.

İşğal illərində 11 min kvadratkilometr ərazidə şəhər bə kəndlərimiz məqsədli urbisid siyasətinə məruz qalıb. Postmüharibə dövründə isə həmin ərazilərdə də yaşayış məntəqələrinin bərpası xalqımızın şəhərsalma ənənələri və yeni tendensiyalar, innovativ yeniliklər nəzərə alınmaqla həyata keçirilir. Yeri gəlmişkən, işğaldan azad olunmuş ərazilərdə yaşayış məntəqələrinin "Ağıllı şəhər" və "Ağıllı kənd" konseptləri əsasında bərpa olunması WUF13-ün iştirakçıları tərəfindən böyük maraqla qarşılandı. Qəbulda Amina Mohammed Bakıda müasir şəhərsalma qaydaları tətbiq olunmaqla tarixi irslə müasirliyin vəhdətinin təmin edildiyini məmnunluqla vurğulayıb və bildirib ki, bu, paytaxtımıza xüsusi gözəllik verir.

Görüşdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə postmünaqişə şəraitində həyata keçirdiyi bərpa və quruculuq işlərinin postmünaqişə vəziyyətindəki regionlar üçün bir nümunə olduğu bildirilib və bu xüsusda ölkəmizin təcrübəsinin BMT çərçivəsində digər ölkələrlə bölüşməsinin faydalı olacağı vurğulanıb.

**Ölkəmizin intellektual brendi - "ASAN xidmət"**

Azərbaycan dövləti Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkənin müasirləşdirilməsini özünün strateji hədəflərindən biri kimi müəyyənləşdirib. "ASAN xidmət" modeli də bu siyasətin real həyatda uğurlu təzahürüdür. Respublikamızda dövlət başçısının müvafiq Fərmanı əsasında 2012-ci il iyulun 13-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradılıb və onun tabeliyində olan "ASAN xidmət" mərkəzləri fəaliyyətə başlayıb. Hazırda Azərbaycanda 28 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlərdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 360-dan çox, "ASAN Kommunal" mərkəzlərində isə "Azərişıq" ASC, "Azərsu" ASC və "Azəriqaz" İB tərəfindən 55 növ xidmət təqdim olunur.

Dünyada ölkəmizin intellektual brendi olan "ASAN xidmət" modelinə marağın artması Azərbaycanın böyük uğurudur. İndiyədək əlçatanlığı ilə yüksək vətəndaş məmnunluğu yaradan bu struktur bir çox beynəlxalq qurumlar və ekspertlər tərəfindən təqdirəlayiq hesab olunub. Artıq ayrı-ayrı ölkələrdə də bu modelin tətbiqinə başlanıb. Qəbulda Azərbaycanın "ASAN xidmət" modelinin BMT-nin dövlət xidmətləri mükafatına, həmçinin BMT-nin rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində xüsusi mükafatına layiq görüldüyü xatırlanıb, "ASAN xidmət"in uğurlu təcrübə kimi Afrika və Asiyanın müxtəlif ölkələrində tətbiq olunduğu qeyd edilib.

*Mübariz ABDULLAYEV*

# 7-ci dialoq...

## Formatın adı dəyişdirildi

Azərbaycan Avropa İttifaqı (Aİ) ilə münasibətlərində daim beynəlxalq hüququn norma və prinsiplərinə, qarşılıqlı hörmət və bərabərhüquqluluq əsasında qurulan əməkdaşlığa üstünlük verir. Bu mövqe imzalanan sənədlərdə, diplomatik danışıqlarda və parlamentlərarası münasibətlərdə ardıcıl şəkildə əksini tapıb.

Ölkəmizlə Avropa İttifaqı arasında mövcud olan tərəfdaşlıq münasibətləri bütövlükdə Cənubi Qafqazın geosiyasi gələcəyi üçün çox əhəmiyyətlidir. Ötən əsrin 90-cı illərindən başlayan bu münasibətlərin dinamikası zaman-zaman fərqli olub. Aİ-nin qonşuluq siyasətinə etdiyi düzəlişlər fonunda müşahidə edilən geosiyasi dəyişikliklər Brüssel-Bakı xəttində də bir sıra yeniliklərə səbəb olmaqdadır. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində də vacib rol oynayır.

### Format Azərbaycan-Aİ Siyasi və Təhlükəsizlik Dialoqu adlandırılacaq

Yeri gəlmişkən, mayın 20-də Bakıda Azərbaycan və Avropa İttifaqı (Aİ) arasında Təhlükəsizlik Dialoqunun yeddinci iclası keçirilib. İclas iştirakçıları Azərbaycan-Aİ münasibətlərinin hazırkı vəziyyəti, qarşılıqlı maraq doğuran xarici və təhlükəsizlik siyasəti məsələləri ilə bağlı konstruktiv fikir mübadiləsi aparıblar. Onlar Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın və Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın Azərbaycana səfərləri və Azərbaycan Prezidenti İlham Əliyevlə görüşləri də daxil olmaqla, son zamanlar yüksəksəviyyəli təmasların intensivləşməsini alqışlayıblar, ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsində ortaq maraqlarını bir daha təsdiqləyiblər.

Tərəflər yeni Tərəfdaşlıq Prioritetləri və yeni ikitərəfli saziş üzrə davam edən müzakirələrin vacibliyini vurğulayıblar. Həmçinin mövcud Azərbaycan-Aİ Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi çərçivəsində müntəzəm dialoqun davam etdirilməsinin əhəmiyyətini diqqətə çatdırıblar. İştirakçılar geosiyasi proseslər və xarici siyasət, bağlantı, enerji təhlükəsizliyi və Orta Dəhliz də daxil olmaqla, regional və beynəlxalq prosesləri müzakirə ediblər. Aİ Azərbaycanın regional bağlantı və enerji şaxələndirilməsi baxımından mühüm tərəfdaş kimi rolunu qeyd edib, davamlı, iqtisadi cəhətdən səmərəli və qaydalara əsaslanan əməkdaşlığın vacibliyini vurğulayıblar.

Aİ Azərbaycanda aparılan humanitar minatəmizləmə səylərinə dəstəyini bir daha təsdiqləyib və bu sahədə əməkdaşlığın davam etdirilməsini alqışlayıb. Səfər çərçivəsində mayın 19-da Aİ nümayəndə heyəti Ağdam rayonu da daxil olmaqla, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına baş çəkib, Azərbaycan tərəfindən həyata keçirilən minatəmizləmə fəaliyyəti ilə tanış olub. İştirakçılar, həmçinin Azərbaycan-Ermənistan sülh prosesi ilə bağlı fikir mübadiləsi aparıblar. Aİ Azərbaycanla Ermənistan arasında son aylarda əldə olunmuş irəliləyişi, o cümlədən etimad quruculuğu tədbirlərini və təmasların intensivləşməsini alqışlayıb, davamlı sülhün dəstəklənməsi üçün dialoqun və praktiki əməkdaşlığın davam etdirilməsinə çağırış edib.

Tərəflər formatın genişləndirilərək onun Azərbaycan-Aİ Siyasi və Təhlükəsizlik Dialoqu adlandırılması barədə razılığa gəliblər ki, bu, ikitərəfli münasibətlərin daha geniş sahələri əhatə etdiyinin və strateji əhəmiyyətinin göstəricisidir. İclasa Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev və Avropa Xarici Fəaliyyət Xidmətinin Siyasi Məsələlər üzrə baş katibinin müavini Olof Skuq həmsədrlik ediblər.

Xatırladaq ki, Aİ-Azərbaycan Təhlükəsizlik Dialoqunun 6-cı iclası ötən il mayın 22-də Brüsseldə keçirilmişdi. Həmin iclasda da tərəflər Aİ ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin vəziyyəti, o cümlədən qarşılıqlı maraq doğuran xarici siyasət və təhlükəsizlik məsələləri ətrafında səmimi və konstruktiv fikir mübadiləsi aparıblar. Onlar son yüksək səviyyəli təmasları alqışlayıblar və tərəflərin ikitərəfli münasibətlərdə yeni səhifənin açılmasında maraqlı olduğunu nümayiş etdirmişdilər.



### Aİ Azərbaycanın enerji təhlükəsizliyində rolunu qiymətləndirir

Ümumiyyətlə, Azərbaycan milli maraqları çərçivəsində Avropa İttifaqı ilə əməkdaşlığa böyük önəm verir. Bu gün Azərbaycanla qarşılıqlı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətlərinin davam və inkişaf etdirilməsi Aİ üçün xüsusi əhəmiyyət daşıyır. Çünki Cənubi Qafqaz regionunun güc mərkəzi kimi çıxış edən, mühüm geostrateji üstünlüklərə malik olan Azərbaycanla əməkdaşlıq siyasi və iqtisadi perspektivlər nöqteyi-nəzərindən önəmli dividendlər vəd edir.

Nəzərə alaq ki, Azərbaycan Avropa İttifaqının bir sıra üzv dövlətləri ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb. Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi ilə bütövlükdə regionumuzda yeni vəziyyət yaranıb. Bu baxımdan yeni mərhələdə Azərbaycanla Avropa İttifaqı arasında tərəfdaşlıq münasibətləri bütövlükdə regionumuz üçün önəmlidir. Avropa İttifaqı Şurasının Prezidenti L.Koştanın və Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti K.Kallasın Azərbaycana son səfərləri də məhz yeni reallıqlar fonunda müsbət dəyərləndirilə bilər. Təsadüfi deyil ki, hər iki şəxs Avropa İttifaqının Azərbaycanla əlaqələri yüksək dəyərləndirdiyini və bu münasibətləri daha da inkişaf etdirməkdə maraqlı olduğunu söyləyiblər. Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində çox uğurlu və səmərəli əməkdaşlığın olduğunu vurğulayan Aİ rəsmiləri ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş rolunda çıxış etdiyini deyiblər.

### Azərbaycan Avropanın 12 ölkəsinə qaz ixrac edir

Avropa İttifaqının qaz və neft idxalından asılılığı kontekstində Azərbaycan faktiki olaraq enerji resurslarının azsaylı etibarlı təchizatçılarından birinə çevrilib və Cənub Qaz Dəhlizinin öz rolunu artırmaq imkanları getdikcə artır. Hazırda daha çox Avropa dövləti Azərbaycan qazının tədarükünə maraq göstərir. Bu gün ölkəmizə yaxın regionlarda davam edən qeyri-sabit vəziyyət Avropanın enerji bazarında hökm sürən qeyri-müəyyənlik də Azərbaycanın strateji əhəmiyyətini daha da artırmaqla yanaşı, etibarlı enerji mənbəyi statusunu da gücləndirib. Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasət nəticəsində ölkəmiz enerji təhlükəsizliyi baxımından Avropanın əsas tərəfdaşlarından birinə çevrilib. Məlumdur ki, 2022-ci il iyulun 18-də Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin ölkəmizə səfəri zamanı "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Artıq nəzərdə tutulan hədəflərə doğru inamla irəliləyirik. Cənub Qaz Dəhlizi bu gün 16 ölkənin enerji təhlükəsizliyini təmin edir. Hazırda 16 ölkə Azərbaycandan qaz alır və onlardan 12-i Avropa ölkəsi, 10-u isə Aİ-nin üzvüdür. Bütün bu səbəblərdən Avropa Komissiyası Azərbaycanı ümum-Avropa qaz təchizatçısı və etibarlı tərəfdaş adlandırır.

Azərbaycan həm təşəbbüskar, həm təchizatçı, həm də beynəlxalq enerji koalisiyasının coğrafiyasını genişləndirən, Avropa ilə Asiya arasında körpü yaradan dövlətdir. Məqsəd və məram isə bütün bölgə ölkələrini bir sülh ailəsində birləşdirməkdir. Nəzərdə tutulan hədəflərin və layihələrin həyata keçirilməsi ilə Azərbaycanın Avropa məkanının enerji təhlükəsizliyi sistemində rolunu əhəmiyyətli dərəcədə artıracaq. Bu amil ölkəmizə iqtisadi gəlirlər gətirməklə yanaşı, mühüm siyasi dividendlər də qazandırır. Azərbaycan beynəlxalq birliyə bir daha nümayiş etdirir ki, dünyada etibarlı tərəfdaşdır. Qazanılan nailiyyətlər isə Azərbaycanın beynəlxalq müstəvidə nüfuzunu daha da artırır və mövqelərini əhəmiyyətli dərəcədə gücləndirir.

*Nardar BAYRAMLI*

# Müasir şəhərsalmanın yol xəritəsi

## Bakının Baş Planı 2040-cı ilədək yeni inkişaf dövrünün tələblərini hədəfləyir

Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında Azərbaycan paytaxtının 2040-cı ilədək inkişafını müəyyən edən "Bakı Baş Planı"nın əsas prioritetləri, şəhərsalma yanaşmaları, nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və dayanıqlı urbanizasiya hədəfləri geniş müzakirə olunub. "2040-cı il Bakının Baş Planı - Yeni İnkişaf Dövrü" mövzusunda aparılan müzakirələrdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Mənzil İnşaatı Dövlət Agentliyi və Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə yanaşı, beynəlxalq tərəfdaşlar və məsləhətçi şirkətlərin nümayəndələri iştirak ediblər. Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəisi Read Qasımov bildirib ki, "Bakı Baş Planı 2040" paytaxtın daha yaşıl, inklüziv, dayanıqlı və qlobal rəqabətqabiliyyətli şəhərə çevrilməsini hədəfləyir. Bu çərçivədə parkların genişləndirilməsi, sahilyanı ərazilərin abadlaşdırılması, şəhər bulvarının inkişafı və məhəllə infrastrukturunun yenilənməsi daha yaşanılabilən şəhər mühitinin formalaşdırılması ilə bağlı layihələrin icrası nəzərdə tutulur ki, bütün bu tədbirlərin başlıca məqsədi sakinlərin həyat keyfiyyətini yüksəldilməsidir.

**Milli "yaşıl tikinti" sənədi hazırlanır**

Paytaxtın Baş Planında ekoloji dayanıqlılıq, enerji səmərəliliyi və bərpaolunan enerji həllərinin təşviqi əsas istiqamətlərindən biri kimi mühüm yer tutur. Bu sahədə Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıq çərçivəsində milli "yaşıl tikinti" yol xəritəsinin hazırlanması istiqamətində işlər aparılır. Əməkdaşlıq çərçivəsində Azərbaycan milli yaşıl tikinti yol xəritəsinin hazırlanması istiqamətində də mühüm addımlar atılmaqdadır. "Yaşıl tikinti" layihələri ekoloji cəhətdən təmiz və sağlam binalar tikmək üçün istifadə olunur. Bu cür layihələrdə ətraf mühitə təsirləri minimuma endirmək üçün material seçimi, enerji istifadəsi, suya qənaət və tullantıların idarə edilməsi kimi amillər diqqətlə planlaşdırılır. Bura, həmçinin binanın layihələndirildiyi yerin seçilməsi, tikintisi, istismarı, təmiri və hətta sökülməsi də aiddir. "Yaşıl tikinti"nin digər məqsədi binaların keyfiyyətinin qorunması və ya artırılması, onların daxili mühitində rahatlığın təmin edilməsidir. Bu tikinti növü klassik tikinti-layihə ənənələrini qənaətlilik, faydalılıq, uzunömürlülük və rahatlıq kimi anlayışlarla təkmilləşdirir.

"Yaşıl tikinti" təkcə ekoloji cəhətdən təmiz deyil, həm də iqtisadi və sosial cəhətdən davamlı müsbət faydalar verir. Xüsusilə də tikinti sektorunda xərclərə qənaət edilməsi baxımından faydası böyükdür. Bu tikinti yanaşması əməliyyat xərclərini azaltmaq, biznesin səmərəliliyini artırmaq və riskləri azaltmaq üçün nəzərdə tutulub. Belə ki, "yaşıl tikinti" layihələrinin idarə edilməsi sayəsində daha səmərəli, qənaətcil texnologiyalardan, ucuz enerji və xidmətlərdən istifadə mümkün olur, bu isə həm dövlətin, həm də özəl tikinti şirkətlərinin xərclərinin azalmasına səbəb olur. Dövlətin tikinti investisiyalarının dəyəri azalmaqla əlavə inşaat layihələrinə sərmayə qoymaq potensialı da artır.




**Çoxmərkəzli şəhər modelinə keçid**

Baş Planda yol-nəqliyyat infrastrukturunun da yenidən qurulması ilə bağlı prioritetlər müəyyən edilib. Müasir şəhər dayanıqlı və yaxşı əlaqələndirilmiş nəqliyyat sistemi olmadan effektiv fəaliyyət göstərə bilməz. Bu baxımdan Baş Planda ictimai nəqliyyatın inkişafına, multimodal əlaqələrin genişləndirilməsinə, nəqliyyat sıxlığının azaldılmasına və yaşayış, biznes və istirahət zonaları arasında inteqrasiyanın gücləndirilməsinə üstünlük verilib. Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin İnstitusional inkişaf məsələləri üzrə müşaviri Fariz Əzizov bildirib ki, Bakı hazırda çoxmərkəzli şəhər modelinə keçid edir və şəhər mobilliyi inteqrasiya olunmuş sistemə çevrilir, şəhərin inkişafı artıq yalnız iqtisadi göstəricilərlə deyil, əlçatanlıq və səmərəli mobilliklə ölçülür.

Çoxmərkəzli şəhər modeli şəhərin yükünü tək bir mərkəzdən çıxarıb, bir-biri ilə inteqrasiya olunmuş müxtəlif altmərkəzlərə bölən planlaşdırma konsepsiyasıdır. Bu modeldə nəqliyyat tıxacları azaldılır və effektiv ictimai nəqliyyat qovşaqları vasitəsilə mərkəzdənqaçma hərəkətliliyi təmin edilir. Bu modelə əsasən, mərkəzlər və alt-mərkəzlər yüksək tutumlu nəqliyyat dəhlizləri (metro, dəmir yolu, sürətli avtobus xətləri) üzərində qurulur, şəhərdaxili nəqliyyat sistemi - avtobus şəbəkəsi, dəmir yolu, metro bir-birini tamamlayır və mobillik zənciri təmin edilir.

Qeyd edək ki, ictimai nəqliyyatda mobilliyin artırılması "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan əsas hədəflər sırasında da yer alır. Prioritetlərə əsasən, ümumi istifadədə olan nəqliyyat xidmətlərinin keyfiyyətinin, dayanıqlılığının və əlçatanlığının artırılması, həmçinin fərdi mobil nəqliyyat vasitələrinin, nəqliyyat və piyada infrastrukturundan istifadənin müasir tələblərə cavab verən səviyyədə təmin edilməsi və nəqliyyatda rəqəmsal texnologiyaların tətbiqi prinsipləri nəzərdə tutulur.

Hazırda həmin sxem üzrə bir neçə layihə icra olunur ki, onlardan ən genişkomponentli olanı Həsən Əliyev küçəsindən "Koroğlu" metro stansiyasına qədər uzanan yeni yol layihəsidir. Layihənin təxminən 50 faizi icra olunub və layihə şəhərin nəqliyyat yükünün azaldılmasına xidmət edəcək.

**"Yaşıl nəqliyyat" parkının genişləndirilməsi**

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi Bakı regional idarəsinin rəisi Tərlan Səfərov isə Bakı nəqliyyat sisteminin vahid mobillik ekosisteminə çevrildiyinə diqqət çəkərək perspektiv planlar sırasında metro şəbəkəsinin genişləndirilməsi, avtobus zolaqlarının artırılması və yeni nəqliyyat qovşaqlarının yaradılması paralel şəkildə davam etdirilməsinin nəzərdə tutulduğunu xatırladıb.

Digər istiqamət davamlı şəhər nəqliyyatında karbon emissiyasının azaldılması, nəqliyyat sektorunun yaşıllaşdırılması yolu ilə havanın keyfiyyətinin yaxşılaşdırılması, "yaşıl nəqliyyat" konseptinin tətbiqinə nail olunmasıdır. Hazırda paytaxtda 368 ekoloji təmiz avtobus fəaliyyət göstərir, 140 kilometr avtobus zolağı salınıb və sərnişindaşıma həcmi davamlı olaraq artır. Eyni zamanda, Bakı şəhərində taksi parkı da, tədricən, alternativ yanacaqlardan istifadə edən nəqliyyat vasitələri ilə yenilənir. Ancaq bu, ekoloji stanrdartlara çatmaq üçün yetərli deyil, şəhərin digər nəqliyyat parklarının yaşıllaşdırılması üçün kifayət qədər işlər görülməlidir. Çünki nəqliyyat ətraf mühiti çirkləndirən əsas mənbələrdən biridir, ümumi çirkləndirmədə 60-70 faiz paya malikdir. Təhlillərə görə, Bakı şəhərində 1 km yola, təqribən 473 avtomobil düşür ki, bu da ekoloji baxımdan olduqca zərərlidir. Bir avtomobil, orta hesabla hər il 4,0 ton oksigen udur, 800 kq zərərli qaz, 40 kq azot oksidi, 200 kq müxtəlif karbohidrogenlər buraxır, eləcə də 1 litr yanacağın tam yanması üçün 15 kq oksigen tələb olunur. Bu amillər "yaşıl nəqliyyat" sisteminin formalaşdırılmasını olduqca aktual edir. Bu baxımdan şəhərsalmada həm də ərazilərdən səmərəli istifadə olunması imkanlarını təqdim etməli, istismar edilən nəqliyyat parkının proporsional bölünməsi, yol-nəqliyyat kompleksinə daxil olan ayrı-ayrı sahələr arasında əlaqələrin təmin olunması da vacibdir.

**İctimai nəqliyyatda mobilliyin artırılması**

Bakının ictimai nəqliyyat sektorunda infrastrukturunun modernləşməsi, xidmətin çoxçeşidliliyinin təmin edilməsi də milli tələblər sırasındadır. Paytaxtın böyük meqapolis kimi daha da inkişaf edərək böyüməsi ictimai nəqliyyatdan istifadənin yeni tələbatlarını meydana çıxarır, bu kontekstdən çoxşəbəkəli xidmət infrastrukturunun yaradılması aktuallaşır. Nəqliyyat şəhər xidmətlərinin əsas sahələrindən biri kimi ümumi mobilliyin təminatında mühüm yer tutur. Ona görə də, sərnişinlərə daha əlçatan və koordinasiyalı, rahat nəqliyyat landşaftı qurmaq vacib həyat şərtlərindən biridir. Aktiv mobillik sahəsində görülən işlərdən də biri kimi paytaxtda 65 kilometr velosiped yolu salınıb, 1000-dən çox velosiped parklanma məntəqəsi quraşdırılıb. Həmçinin, mikromobillik həllərinin, xüsusilə elektrik skuterlərinin qısaməsafəli səfərlərdə istifadəsinin artdığı diqqətə çatdırılıb. Qeyd olunub ki, bu xidmətlər üzrə 4 milyondan çox səfər həyata keçirilib və 400 mindən artıq istifadəçi sistemdən yararlanır. Əldə olunan nəticələr Bakı sakinlərinin dayanıqlı və alternativ nəqliyyat həllərinə marağının artdığını nümayiş etdirir. Bu kimi mobil hərəkət xətlərinin şaxələndirilməsi üzrə müvafiq tədbirlər planı icra olunacaq. Məqsəd magistral yollar, metro, dəmir yolu və digər nəqliyyat növlərini ayrı-ayrı sistemlər kimi deyil, vahid rəqəmsal və fiziki ekosistem şəklində inteqrasiya etməkdir. Bu yanaşma səyahət vaxtının azaldılmasına və şəhər üzrə əlçatanlığın artırılmasına xidmət edir.

*E.CƏFƏRLİ*

## AP-nin bir qrup üzvü təşkilatı Azərbaycanla bağlı yanlış mövqeyinə görə tənqid edib

# Avropanın strateji cəzası...

## Avropa Parlamenti səhvini anlayacaqmı?

Avropa Parlamentinin Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirməsi yeni məsələ deyil. 44 günlük Vətən müharibəsindən sonra bu təşkilat tərəfindən ölkəmizə qarşı qəbul edən qətnamələrin, belə demək mümkünsə, sayı-hesabı yoxdur. Avropa Parlamenti dövlətimizin öz ərazilərini işğaldan azad etməsini, Qarabağ üzərində öz suverenliyini təmin etməsini, erməni separatizminin kökünü kəsməsini həzm edə bilmir.

Bu gün Avropa dəyərlərinin aşınmaya məruz qalması təəssüf doğurur. Avropa təsisatları yarandıqları zaman xüsusilə beynəlxalq hüquq, insan haqları və demokratiya kimi prinsipləri əsas götürüblər. Lakin həmin təşkilatların fəaliyyətində bu prinsiplərə riayət olunmur. Bu təşkilatlar hazırda beynəlxalq güclərin və lobbilərin diqtəsi ilə işləyir. Yəni, fundamental dəyərlər onlar üçün arxa plana keçirilib. Avropa Parlamentinin qəbul etdiyi qətnamələr də bunun sübutudur. Avropa Parlamenti kimi islamafob və türkəfob dairələrin əlində alət olan qurumların qəbul etdiyi sənədlərin heç bir hüquqi qüvvəsi yoxdur. Bu təşkilat hər zaman insan hüquqları və demokratiya pərdəsi altında Azərbaycanı hədəfə alıb. Nəzərə alaq ki, Ermənistanın 30 illik işğalı dövründə Avropa Parlamenti bu ölkənin işğalçı siyasətini pisləyən, 1 milyona qədər azərbaycanlı qaçqın-köçkünün hüquqlarını müdafiə edən sənədlər qəbul etməyib. Amma indi bu qurum Ermənistanla əməkdaşlığa böyük önəm verir, hazırda həbsdə olan erməniəsilli müharibə canilərini müdafiə edir.

**Milli Məclis Avropa Parlamenti ilə əlaqələri dayandırıb**

Avropa xalqlarının problemləri, qarşılaşdıqları çağırışlarla məşğul olmaq əvəzinə, Avropa Parlamenti artıq tam şəkildə Azərbaycanofob, islamofob, şovinist və irqçi qüvvələrin "qanuni" təmsilçisinə çevrilib. Bu gün ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qarşı aparılan indiki kampaniya Avropa Parlamentinin riyakarlığı və ikiüzlülüyü ilə yanaşı, Azərbaycana qarşı birmənalı şəkildə hücuma keçdiyini göstərir. Əslində, Avropa Parlamentinin apreldə qəbul olunmuş son qətnaməsi də Azərbaycanın işğalçı Ermənistan üzərində qələbə qazanmasından, ərazi bütövlüyünü bərpa etməsindən doğan "qəzəbin" təzahüründən başqa bir şey deyildi. Görünür, son zamanlar Ermənistanla Azərbaycan arasında vasitəçilərin iştirakı olmadan keçirilən danışıqlar, yüksəksəviyyəli təmaslar, 8 avqust Vaşinqton razılaşması Avropa Parlamentini məyus edir. Təşkilat indiki mövqeyi ilə sülh prosesinə zərbə vurmağa çalışır.

Məhz bu kimi səbəblərdən ölkəmiz təşkilata qarşı adekvat addım atmalı oldu. Belə ki, aprelin sonlarında qəbul etdiyi qərəzli qətnaməyə görə Milli Məclis mayın 1-də keçirilən iclasında korrupsiya və rüşvətxorluq yuvası olan Avropa Parlamenti ilə əlaqədar qərar qəbul edib. Qərara əsasən, Azərbaycan Milli Məclisinin Avropa Parlamenti ilə bütün istiqamətlər üzrə əməkdaşlıq əlaqələri dayandırılıb. Milli Məclisinin Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin fəaliyyətində iştirakına da son qoyulub. Eyni zamanda, Avronest Parlament Assambleyasının nizamnaməsinə uyğun olaraq Milli Məclisin bu təşkilatda üzvlüyünə xitam verilməsi barədə prosedur qaydalarının icrasına başlanılması və prosedur dövründə Milli Məclisin nümayəndə heyətinin Avronest Parlament Assambleyasının tədbirlərinə qatılmaması qərara alınıb.

**Brüssel üçün həyəcan siqnalı...**

Azərbaycanın qəti mövqeyindən sonra AP daxilində təşkilatın səhvini anlamağa başlayanlar var. Belə ki, Avropa Parlamentinin bir qrup deputatı təşkilatın Azərbaycanla əməkdaşlığı dayandırmasına səbəb olan hərəkətlərini tənqid ediblər. Mayın 21-də Strasburqda Avropa Parlamentinin plenar iclasının sonunda Azərbaycan parlamentinin Avropa Parlamenti ilə əməkdaşlığı dayandırmaq və "Avronest"dən çıxmaq barədə qərarı gündəliyə çıxarılıb. Xüsusilə, Avropa Parlamentinin "Avronest"dəki nümayəndə heyətinin rəhbəri Sergey Laqodinski Bakını məlum qərarını yenidən nəzərdən keçirməyə çağırıb. O qeyd edib ki, ölkə "Şərq tərəfdaşlığı" çərçivəsində regional dialoqun mühüm hissəsi olaraq qalır və onun Qara dəniz strategiyası, nəqliyyat əlaqəsi, energetika, rəqəmsal infrastruktur və regionda qarşılıqlı əməkdaşlıq layihələri üzrə müzakirələrdə iştirakı zəruridir.

Deputatların bir hissəsi çıxışlarında açıq şəkildə bildiriblər ki, Aİ-nin və Avropa Parlamentinin hərəkətləri Bakı ilə münasibətlərdəki böhranın səbəblərindən biri olub. Ən kəskin çıxışlardan biri Avropa Mühafizəkarları və İslahatçılar qrupundan olan deputat Kristian Terheşin bəyanatı olub. O, bəyan edib ki, Azərbaycan parlamentinin qərarı Brüssel üçün həyəcan siqnalı olmalıdır. K.Terheş birbaşa Avropa Parlamentini ittiham edib ki, qurum apreldəki Ermənistanla bağlı qətnaməni Bakıya təzyiq aləti kimi istifadə edib: "Avropa Parlamenti Ermənistanın demokratik inkişafı hissəsində həmimizin dəstəklədiyi 2026-cı il aprel qətnaməsini Azərbaycana hücum etmək üçün istifadə etdi, bu tamamilə lazımsız, ağılsız və əks-məhsuldar idi".

**"Bu siyasi səbatsızlıq və geosiyasi intihardır"**

K.Terheş xüsusi diqqəti ona yönəldib ki, məhz hazırda Ermənistan və Azərbaycan sülh sazişinin bağlanmasına yaxınlaşmağa çalışır: "Onilliklər boyu müharibələrdən sonra onlar nəhayət birlikdə işləyir və barışıq və sülh müqaviləsinin imzalanması üçün real səylər göstərirlər". Onun fikrincə, bu fonda Avropa Parlamentinin hərəkətləri siyasi cəhətdən uzaqgörən görünmür. Deputat, həmçinin Avropa siyasətinin ümumi üslubunu tənqid edib: "Daimi moralizatorluq, ideoloji qınama ilə vəsvəsə - bu xarici siyasət deyil. Bu siyasi səbatsızlıq və geosiyasi intihardır". K.Terheş xəbərdarlıq edib ki, belə praktika artıq tərəfdaşların uzaqlaşmasına gətirib çıxarır: "Biz Gürcüstan və digər dövlətlərlə bağlı da eyni dinamikanı müşahidə edirik. Onlar ikili standartlar və təkəbbürlü yanaşma səbəbindən Avropa İttifaqından getdikcə daha çox uzaqlaşırlar". Onun qiymətləndirməsinə görə, Aİ məhz Cənubi Qafqaz və Mərkəzi Asiyanın strateji əhəmiyyət kəsb etdiyi bir vaxtda mövqelərini itirmək riski ilə üzləşir: "Azərbaycan sadəcə Aİ-nin başqa bir tərəfdaşı deyil. O, Avropanın enerji təhlükəsizliyi və nəqliyyat əlaqəsi üçün əsas əhəmiyyətə malikdir".



K.Terheş vurğulayıb ki, Azərbaycan Avropaya Rusiya qazından asılılığı azaltmağa kömək edib, yanacaq tədarük edir və Ukraynaya humanitar yardım göstərir: "Azərbaycan kimi ölkələrin uzaqlaşdırılması sadəcə məsuliyyətsizlik deyil, bu geosiyasi cəhətdən özünüməhvetmədir". Onun sözlərinə görə, Avropaya realizm, strateji düşüncə və qarşılıqlı hörmətə əsaslanan tərəfdaşlıq lazımdır, daimi nəsihətlər və özünü üstün hesabetmə hissi yox.

**"Dünyaya dərs verməyi və mühazirə oxumağı dayandırın!"**

"Patriots for Europe" qrupunun deputatı Anjelin Füre isə Bakı ilə münasibətlərdəki böhranı regionda Avropa strategiyasının iflası kimi təqdim edib: "Azərbaycanın "Euronest"dən çıxmaq qərarını sadəcə prosedur addımı hesab etmək olmaz. Bu Avropanın strateji cəzasıdır". A.Füre böhranı birbaşa Aİ-nin hərəkətləri ilə əlaqələndirib: "Biz sizin müdaxiləniz və Ermənistana münasibətdə yanaşmamızın bədəlini ödəyirik". Onun sözlərinə görə, Avropa eyni vaxtda Bakı ilə enerji əməkdaşlığını saxlamağa və siyasi təzyiqi gücləndirməyə çalışırdı: "Siz düşünürdünüz ki, qaz tədarükünü təmin edəcəksiniz, amma eyni zamanda bütün bu qətnamələri qəbul edirdiniz".

A.Füre əlavə edib ki, Avropa nə humanitar məqsədlərə nail olub, nə də Azərbaycanla münasibətləri yaxşılaşdırıb. O, həmçinin Avropa strukturlarını dövlətlərin yerini tutmağa cəhddə ittiham edib: "Siz dərs keçmək üçün dövlətlərin rolunu öz üzərinizə götürdünüz". Daha sonra o, geosiyasətə keçib və bəyan edib ki, Aİ bəyannamələrlə məşğul olarkən region Avropasız yenidən qurulmağa başlayıb. Avropalı parlamentarinin fikrincə, ABŞ administrasiyası Azərbaycan və Ermənistanın maraqlarını uzlaşdıraraq tranzit dəhliz yarada bilib. A.Füre xüsusi diqqəti yeni marşrutun - "TRIPP" dəhlizinin artıq iqtisadi ölçü qazanmasına yönəldib: "Yeni strateji yol meydana çıxdı - sülh yolu və faktiki olaraq ABŞ kapitalı tərəfindən idarə olunan".

"Geoiqtisadi baxımdan Avropa təcrid olunmuş vəziyyətdə qalıb, Mərkəzi Asiyanın yeni siması isə Aİ-siz formalaşır. Avropa dünyanın öz gözləri önündə yenidən qurulmasını seyr etməyi dayandırmalıdır",-deyən deputatın son çağırışı Avropa institutlarına ünvanlanıb: "Dünyaya dərs verməyi və mühazirə oxumağı dayandırın. Ölkələrə öz işləri ilə məşğul olmağa imkan verin və yetkin real politikaya keçin".

**AP "odun üstünə yağ tökən" qətnamələr qəbul edir**

Deputat Tyerri Mariani isə öz növbəsində bəyan edib ki, hazırda Cənubi Qafqaz unikal nöqtədədir, onilliklər boyu münaqişədən sonra Bakı və İrəvan sülhə yaxınlaşıb. O xatırladıb ki, əvvəllər tənzimləmə praktiki olaraq qeyri-mümkün hesab olunurdu: "Bu gün çoxlarının qeyri-mümkün hesab etdiyi baş verir - barışıq prosesi başlayır". Lakin onun fikrincə, Avropa Parlamenti əks istiqamətdə hərəkət edir, "odun üstünə yağ tökən" qətnamələr qəbul edir. T.Mariani qeyd edib ki, Azərbaycan Avropa Parlamenti ilə konstruktiv münasibətlər qurmaq istəyirdi, lakin qanuni narahatlıqları səbəbindən qapını bağlayıb. "Qafqazda sülhə Avropa Parlamentinin müdaxiləsi ilə deyil, regiondakı danışıqlar yolu ilə nail olunacaq", - deyə o, vurğulayıb.

Digər Avroparlamentari Tomas Fröhlih də Azərbaycan ətrafındakı böhranı Aİ-nin xarici siyasətinin daha geniş problemi ilə əlaqələndirib: "ABŞ və Çin ilə pis münasibətlər yaranıb, Rusiya ilə isə ümumiyyətlə münasibətlər yoxdur. Aİ-nin tədricən dünya siyasətinin kənarında qaldığı təəssüratı yaranır". O xəbərdarlıq edib ki, Bakı ilə davam edən problem Avropanın energetikasına zərbə vura bilər: "Əgər biz Azərbaycanla bu cür ünsiyyət qurmağa davam etsək, bu Avropanın enerji təhlükəsizliyinə son zərbə ola bilər".

Beləliklə, Avropa Parlamentinin deputatları artıq qəbul etdikləri qərəzli qətnamələrin fərqindədir. Təşkilat anlamalıdır ki, Azərbaycanla təzyiq dili danışmaq yolverilməzdir.

*Nardar BAYRAMLI*

# Güclü dövlətin təmini...

## Hüquqi və siyasi mədəniyyət cəmiyyətin inkişaf açarıdır

Müasir dünyanın sürətlə dəyişən sosial, iqtisadi və siyasi mühitində insan hüquq və azadlıqlarının qorunması təkcə qanunla təmin olunan mexanizm deyil. Vətəndaş cəmiyyətində insanların öz hüquqlarını bilməsi, onları müdafiə etmək qabiliyyətinə malik olması yalnız şəxsi rifahın təminatına xidmət etmir. Bütün bunlar eyni zamanda cəmiyyətin demokratik prinsiplər üzərində formalaşmasına, sosial ədalətin möhkəmlənməsinə və siyasi proseslərin şəffaf və ədalətli şəkildə aparılmasına mühüm təsir göstərir. Belə bir kontekstdə vətəndaşın hüquqi və siyasi mədəniyyətinin yüksəldilməsi, onun həm də ictimai fəallığını artırmaq, cəmiyyətin problemlərinə daha məsuliyyətlə yanaşmaq və kollektiv rifahın təmin olunmasına töhfə vermək qabiliyyətini inkişaf etdirməsi deməkdir.

Eyni zamanda, hüquqi bilik və siyasi şüurun artması vətəndaşların dövlət qurumları ilə effektiv əməkdaşlıq etməsinə, ictimai təşəbbüslərdə iştirak etməsinə və müxtəlif sosial qrupların maraqlarını müdafiə etməsinə şərait yaradır. Bu isə cəmiyyətin özünü idarə etmə qabiliyyətini möhkəmləndirir. Nəticədə, insan hüquqlarının müdafiəsi və vətəndaş fəallığının artırılması bir-birindən ayrılmaz proses olaraq, cəmiyyətin inkişafı və demokratik dəyərlərin hərtərəfli təşviqi üçün vacib bir baza yaradır. Bu baza isə hər bir fərdin hüquqi və siyasi maarifləndirilməsi, vətəndaşlıq məsuliyyətini dərk etməsi və aktiv sosial-siyasi iştirakı ilə həyata keçirilə bilər.

### Hüquqların qorunması: Etimad və şəffaflıq yolu...

Mövzunu "Yeni Azərbaycan"a dəyərləndirən Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əliməmməd Nuriyev bildirib ki, insan hüquqları və azadlıqlarının qorunması, həmçinin təşviqi müasir və demokratik cəmiyyətin əsas sütunlarından biri kimi qiymətləndirilir. Onun sözlərinə görə, bu sahədə atılan hər bir addım yalnız vətəndaşların həyat keyfiyyətini yüksəltmir, eyni zamanda ölkənin hüquqi və siyasi sisteminin dayanıqlılığını da təmin edir: "Çünki hüquqların təminatı və onların müdafiəsi, vətəndaşların dövlət qarşısında olan etimadını gücləndirir, sosial ədalət prinsiplərini möhkəmləndirir və cəmiyyətin bütün təbəqələrinə bərabər imkanların yaradılması üçün zəmin hazırlayır. Bu baxımdan vətəndaşların hüquqi və siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi yalnız formal bir bilik məsələsi deyil, həm də onların ictimai proseslərdə fəal iştirakını təmin edən, düşüncələrini və davranışlarını demokratik prinsiplərə uyğun yönəldən, dövlətin fəaliyyətinə şəffaf baxış qabiliyyətini inkişaf etdirən kompleks bir prosesdir. Yüksək hüquqi mədəniyyətə malik olan vətəndaşlar öz hüquq və vəzifələrini daha dərindən dərk edir, qərəzsiz qərarlar qəbul edə bilir və ictimai nəzarəti effektiv şəkildə həyata keçirə bilirlər".



### Fəal vətəndaş, güclü dövlət

Ekspert qeyd edib ki, sosial və siyasi fəallığın artırılması, vətəndaşların yalnız hüquqlarını tələb etməsi ilə kifayətlənir, eyni zamanda dövlətin qərarvermə proseslərinə aktiv təsir göstərə bilir: "Bu da demokratik prinsiplərin praktikada işləməsi üçün vacib şərtdir. Fəal vətəndaş cəmiyyəti, müxtəlif maraq qruplarının balanslaşdırılmış təmsilçiliyi və media vasitəsilə həyata keçirilən ictimai nəzarət, dövlətin səmərəliliyini artırır. Eyni zamanda, hüquqi biliklərin və siyasi savadın cəmiyyətə inteqrasiyası sosial sabitliyi gücləndirir, insanların fərqli fikirlərə hörmətlə yanaşmasını təmin edir. Nəticədə müxtəlif təbəqələr arasında dialoq mühitini formalaşdırır ki, bu da ölkədə uzunmüddətli inkişafın və demokratik transformasiyanın əsasını təşkil edir".

### Dövlət-vətəndaş münasibətlərinin gücləndirilməsi

Ə.Nuriyevin sözlərinə görə, insan hüquqları və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi və siyasi mədəniyyətinin yüksəldilməsi və onların sosial, eləcə də siyasi fəallığının artırılması bir-birindən ayrılmaz proseslərdir: "Onlar yalnız fərdlərin şəxsi inkişafını təmin etmir, həm də ölkənin demokratik institutlarının möhkəmlənməsinə, ictimai rəylərin düzgün formalaşmasına və dövlət-vətəndaş münasibətlərinin şəffaf və səmərəli qurulmasına xidmət edir. Ona görə də bu istiqamətdə həyata keçirilən hər bir təşəbbüs uzunmüddətli perspektivdə, cəmiyyətin həm hüquqi, həm də sosial rifahına əvəzsiz töhfə verir".

*Yeganə BAYRAMOVA*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığın artırılması" istiqaməti üzrə hazırlanmışdır

# Qazaxıstan və Azərbaycan daşınma qaydalarını sadələşdirdi

## Nəqliyyat vasitələri üçün elektron icazə blankları istifadəyə verilib

Qazaxıstan hökuməti beynəlxalq daşımaların inkişafı və daşıyıcılar üçün prosedurların sadələşdirilməsi çərçivəsində Azərbaycan, Türkiyə və Qırğızıstanla elektron icazə blanklarının mübadiləsi mexanizmini tətbiq edib. Yeni tətbiqdən sonra, icazələrin rəsmiləşdirilməsi və istifadəsi sisteminin aktivləşdirilməsi üçün texnoloji rəqəmsal həllərə start verilib. Belə ki, tərəfdaş ölkələr e-icazənin tətbiqinin öz informasiya sistemlərinə və rəqəmsal platformalarına inteqrasiyası istiqamətində işlər aparılır. Elektron formata keçidlə əlaqədar olaraq, Qazaxıstan Nəqliyyat Nazirliyi daşıyıcılara icazə blanklarının üçüncü şəxslər vasitəsilə əldə edilməsinin yolverilməzliyi barədə xəbərdarlıq edib. E- icazə almaq üçün nəqliyyat vasitəsi yalnız Qazaxıstanda müvafiq dövlət qeydiyyatından keçməli və beynəlxalq avtomobil daşımaları üçün buraxılışa malik olmalıdır.

### Rəqəmsal transformasiya yolunda vacib mərhələ

Qeyd edək ki, Qazaxıstan hökumət indiyə qədər Çin və Özbəkistanla xarici icazə blanklarının rəqəmsallaşdırılması sahəsində birgə addımlar atıb. Azərbaycan, Türkiyə və Qırğızıstanla elektron mübadilənin başlanması bu istiqamətdə həyata keçirilən nəqliyyat siyasətinin tərki hissəsi olmaqla, bu sahənin tam rəqəmsal transformasiyası yolunda vacib mərhələ sayıla bilər.

Elektron formatlı icazə sistemi nəqliyyat daşınmalarında kağız blanklardan imtinaya səbəb olmaqla yanaşı, inzibati maneələri minimuma endirməyə imkan verəcək. Belə ki, e-icazələr daşıyıcı barədə bütün zəruri məlumatları, o cümlədən daşıyıcının şəxsi informasiyalarını və nəqliyyat vasitəsinin dövlət qeydiyyat nömrəsini, icazə, logistika şirkətində qeydiyyatı və s. məlumatları avtomatik rejimdə bu sistemə qoşulmuş ölkələrin - Azərbaycan, Türkiyə və Qırğızıstanın informasiya sistemlərinə ötürəcək. Beləliklə, qeyri-qanuni daşınmaların (o cümlədən üçüncü şəxslərdən əldə edilmiş icazələr) qarşısı alınacaq və logistika fəaliyyəti tamamilə rəsmiləşdiriləcək, şəffaf nəzarət sistemi qurulacaq. Nəticədə, həmin ölkələr arasında nəqliyyat daşınmaları zamanı yüklərin reyestri və həcmləri, tranzit dəyərləri e-hesabatlılığa əsaslanacaq.

### Türk dövlətlərinin manesiz ticarət rejimi

Müasir dövrdə nəqliyyatın idarə edilməsində rəqəmsal texnologiyaların tətbiqi və infrastrukturun elektronlaşdırılması dünya ölkələrinin qarşısında duran əsas çağırışlardandır. Rəqəmsallaşma müasir İT imkanlarından istifadə etməklə məlumatların daha dəqiqliyi, vaxta qənaət edilməsi, ölkələrarası inteqrasiya nəticəsində məlumatların daha sürətli və dəqiq ötürülməsi, nəqliyyat vasitələrinin onlayn izlənilməsi və s. kimi funksionallığa şərait yaradır. Həmçinin, əməliyyat səmərəliliyinin, rəqabət qabiliyyətinin artırılması baxımından əhəmiyyət kəsb edir. Bu baxımdan, Qazaxıstan, Azərbaycan, Türkiyə və Qırğızıstan arasında nəqliyyat daşınmalarında elektron icazə sisteminin qurulması mühüm əhəmiyyət kəsb edir. Bu əməkdaşlıq, eyni zamanda, türk dövlətlərinin əsas prioritetlərindən biri olan maneəsiz ticarət rejimlərinin yaradılması prinsiplərinə xidmət edir. Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələr arasında son illərdə ticarət, sərhədkeçmə, nəqliyyat və tranzit sahələrində sadələşdirilmiş prosedurların tətbiqi istiqamətində müvafiq hüquqi-iqtisadi çərçivələr hazırlanmaqdadır. Bu sənədlərin əsas məqsədi türk dövlətlərinin apardığı ticarət əməliyyatları və tranzit daşımaları zamanı gömrük, sərhəd prosedurlarının asanlaşdırılmasıdır. Məsələn, ötən il qüvvəyə minmiş sadələşdirilmiş gömrük dəhlizinin yaradılması ilə bağlı Sazişə əsasən, türk dövlətlərinin apardığı ticarət əməliyyatları zamanı gömrük və daşınma-logistika rejiminin yumşaldılması nəzərdə tutulur.



Qeyd edək ki, ötən həftə Qazaxıstanın Türküstan şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının

### Yeni Kompüterləşdirilmiş Tranzit Sistemi

Türk dövlətlərinin hər birinin yerləşdiyi əlverişli coğrafi mövqe onların müasir dünyada ən innovativ iqtisadi platformalardan biri olan "Rəqəmsal İpək Yolu" ("Digital Hub") ətrafında sıx birləşməsi üçün əlverişli imkanlar yaradır. Həmin istiqamət üzrə digər hədəf yerüstü nəqliyyat daşımalarında tətbiq olunan rüsumların differensiallaşdırılması və optimallaşdırılmasıdır. Bu, üzv ölkələr arasında qarşılıqlı olaraq ticarət rejiminin yumşaldılması və idxal-ixrac mallarının gömrük və tranzit rüsumlarının aşağı salınması istiqamətində vahid siyasətin yürüdülməsi deməkdir. Həmçinin, ticarətdə elektron mübadilənin yeni mexanizmlərindən biri kimi Türkiyədə qüvvədə olan Yeni Kompüterləşdirilmiş Tranzit Sistemi təcrübəsinin bütün üzv ölkələrdə geniş tətbiqi nəzərdə tutlur ki, bu da iqtisadi-ticarət əlaqələrin təşviqi və mal mübadiləsinin həcmlərinin artırılmasına xidmət edir.

Qeyd edək ki, ötən həftə Qazaxıstanın Türküstan şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə də rəqəmsal mübadilələrin möhkəmlənməsi ilə bağlı müzakirələr aparıldı və rəqəmsal bağlantıları təşviq edən yeni prosedurların tətbiqinə diqqət çəkildi.

Beləliklə, Qazaxıstan, Azərbaycan, Türkiyə və Qırğızıstan arasında daşımalarda elektron icazə sisteminin yaradılması qarşılıqlı tranzitlərin daha asan və manesiz hərəkətinin təmin edilməsində mühüm rol oynamaqla, digər rəqəmsal hədəflərə çatmağa zəmin yaradacaq.

**E.CƏFƏRLİ**

# Azərbaycan-Tacikistan iqtisadi əlaqələri yeni mərhələdə

## Hökumətlərarası Komissiyanın səkkizinci iclasında mühüm sənədlər imzalanıb



Mayın 21-də Bakıda keçirilən Azərbaycan-Tacikistan Hökumətlərarası Komissiyanın səkkizinci iclasında ikitərəfli münasibətlərin cari vəziyyəti əhatəli müzakirə edilib, əməkdaşlığın prioritet istiqamətlərinin müəyyənləşdirilməsi və praktiki addımların razılaşdırılması üçün anlaşma əldə olunub. Azərbaycan tərəfdən Komissiyanın sədri, Baş nazirin müavini Samir Şərifov bildirib ki, iki ölkə arasında yüksəksəviyyəli siyasi dialoq ikitərəfli münasibətlərin inkişafına mühüm təkan verir. Münasibətlərin yüksək səviyyəyə çatmasında dövlət başçılarının siyasi iradəsi mühüm rol oynamaqdadır. Son illərdə isə Prezident İlham Əliyevin Mərkəzi Asiya ölkələrinin liderləri, o cümlədən Tacikistanın dövlət başçısı ilə görüşləri və aparılan səmərəli müzakirələr siyasi münasibətləri daha da gücləndirib. 2024-cü ildə Tacikistan Prezidentinin Azərbaycana dövlət səfəri çərçivəsində imzalanmış Strateji tərəfdaşlıq haqqında Bəyannamə isə münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəldib.

Mərkəzi Asiya dövlətləri, o cümlədən Tacikistan ilə əlaqələrin inkişafına xüsusi önəm verən Azərbaycanın 2025-ci ilin noyabr ayında Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatına tamhüquqlu iştirakçı kimi qoşulması regionlararası əlaqələrin möhkəmlənməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Tacikistan Baş nazirinin müavini Usmonali Usmonzodanın fikrincə, iki ölkə arasında ticarət əlaqələri son illərdə artım templəri ilə irəliləyir. 2025-ci ildə Azərbaycan ilə Tacikistan arasında ticarət dövriyyəsinin 84 faiz, strateji əhəmiyyətli tranzit daşımalarının isə 50 faiz artması iqtisadi əməkdaşlığın müsbət dinamikasını əks etdirir. Tərəflər arasında sərmayə anlaşması da mühüm əhəmiyyət daşıyır, Tacikistan azərbaycanlı iş adamlarının ölkə iqtisadiyyatına sərmayə yatırması üçün hər cür şəraiti yaratdığını bildirir. İclasın yekununda Azərbaycan və Tacikistan arasında əməkdaşlığın genişləndirilməsinə yönəlmiş bir sıra mühüm sənədlər imzalanıb. Qeyd olunub ki, bu sənədlər ikitərəfli ticarət-iqtisadi əlaqələrin institusional əsaslarının möhkəmləndirilməsinə və praktiki əməkdaşlığın genişlənməsinə xidmət edəcək.

**Biznes-Forum əməkdaşlığın möhkəmlənməsində istiqamətverici rol oynayır**

Azərbaycan-Tacikistan Biznes-Forumunda isə iqtisadi-ticari-investisiya əməkdaşlığının artırılması istiqamətində faydalı müzakirələr aparılıb. Dövlət və özəl sektorun nümayəndələrinin iştirak etdiyi forumda çıxış edən iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov bildirib ki, bu cür müştərək görüşlər ikitərəfli gündəmin daha da genişləndirilməsi və əsas istiqamətlər üzrə əməkdaşlığın möhkəmləndirilməsi üçün istiqamətverici rol oynayır. Bildirib ki, iki ölkə arasında qarşılıqlı ticarət dövriyyəsi üçün güclü potensiallar mövcuddur, cari ilin yanvar-aprel aylarında qarşılıqlı mal mübadiləsinin həcmi iki dəfə artaraq 8,5 milyon dollardan çox olub. Dövriyyənin əsas payı Azərbaycandan Tacikistana ixracın üzərinə düşür. Ancaq buna baxmayaraq, tərəflər rəqəmləri qanedici hesab etmir, mövcud əmtəə mübadiləsi həmin iqtisadi imkanları əks etdirmədiyindən, qarşılıqlı faydalı ticarət mübadiləsinin artırılmasına ehtiyac var. Bir sıra perspektiv istiqamətlər üzrə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı ilkin şərtlər mövcuddur ki, bunlar iqtisadi-ticari böyüməyədə xüsusi təkan verə bilər. Məsələn, tikinti materiallarının istehsalı, alüminium sahəsi daxil olmaqla sənaye kooperasiyası, sənaye parkları və azad iqtisadi zonalar çərçivəsində, həmçinin energetika və yeni texnologiyaların ayrı-ayrı istiqamətləri üzrə əməkdaşlıq mümkündür.

Tərəflər hazırda yeni gündəliyin prioritetlərinə əsasən, sənaye, kənd təsərrüfatı, ticarət, xidmətlər, nəqliyyat-logistika infrastrukturu, rəqəmsal həllər və kiçik və orta sahibkarlığın inkişafı kimi istiqamətlərdə əlaqələri inkişaf etdirməyi hədəfləyir. Hər iki ölkənin iqtisadi baxışları isə bu sahələr üzrə qarşılıqlı bağlantıları tamamlayır.

**İşgüzar Şura birbaşa əlaqələri genişləndirəcək**

Azərbaycan və Tacikistan arasında İşgüzar Şuranın yaradılması isə qeyd edilən hədəflərə çatmaqda yeni platforma olacaq. Şura biznes icmaları arasında bağlantıları da təşviq etmək üçün faydalı təşəbbüslər planı üzrəində işləmək niyyətindədir. Bu isə azərbaycanlı və tacik sahibkarlar arasında daha sıx əməkdaşlıq, birbaşa əlaqələrin genişləndirilməsi və birgə təşəbbüslərin həyata keçirilməsi üçün yeni institusional çərçivə formalaşdıracaq. Həmçinin, ötən ilin sonunda Azərbaycanın Mərkəzi Asiya ölkələri, o cümlədən Tacikistan üzrə ilk ticarət nümayəndəsinin təyin edilməsi ticarət-iqtisadi əlaqələrin genişlənməsinə əlavə impuls verəcək.

Ticarət-investisiya kooperasiyasına əlavə təkan verə biləcək əsas amillərdən biri ölkələrimiz arasında nəqliyyat-logistika əlaqəliliyinin inkişafıdır. Azərbaycanın Avropa ilə Asiya arasındakı marşrutların kəsişməsində yerləşməsi, həmçinin Orta Dəhlizin Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı ticarətin genişləndirilməsi, çatdırılma müddətlərinin qısaldılması və daşımaların rəqabət qabiliyyətliliyinin artırılması üçün yeni imkanlar açır. İnfrastrukturun modernizasiyası, nəqliyyat prosedurlarının sinxronlaşdırılması və gömrük qarşılıqlı əlaqəsinin sadələşdirilməsi investisiyaların cəlb edilməsi və regionun tranzit potensialından daha fəal istifadə üçün əlavə şərait yaradır. Bu dəhliz birgə əməkdaşlığı böyük bir coğrafiyada - Şərq-Qərb və Şimal- Cənub istiqamətlərində böyük həcmdə yüklərin hərəkətini şaxələndirəcək və hər iki ölkəyə bir çox üstünlüklər qazandıracaq.

**E.CƏFƏRLİ**

# WUF13-də 53 mindən çox şəxs iştirak edib

Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında (WUF13) indiyə qədər onlayn rejim daxil olmaqla, 53 mindən çox şəxs iştirak edib.

"”Report”un xəbərinə görə, bunu Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, WUF13 üzrə milli koordinator Anar Quliyev bildirib.

"Bu forumda gələcəyin əməkdaşlığının təməli atılıb. Tədbir çərçivəsində 400-dən çox spiker çıxış edib. Onların 60-ı Azərbaycandan olub", -deyə o qeyd edib.

Sədr əlavə edib ki, WUF13 Forumun gələcəyini və qlobal əməkdaşlığı formalaşdıracaq bir sıra mühüm yenilikləri təqdim edib: "WUF13-ün digər mühüm mərhələsi Azərbaycanın sədrliyi ilə keçirilən və "Yeni Şəhərsalma Gündəliyi"nin icrasının nəzərdən keçirildiyi yenidən formatlaşdırılmış nazirlər görüşü olub. İştirakçı 111 ölkədən 80-i nazir və nazir müavini səviyyəsində, qalanları isə səfir və yüksək vəzifəli rəsmilər səviyyəsində təmsil olunub".

"Biz gələcəkdə Foruma ev sahibliyi edəcək ölkələrə dəstək məqsədilə "Bakı standartları" əsasında əməliyyat təlimatlarının hazırlanması üçün BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) ilə niyyət məktubu imzalamışıq. Digər mühüm nailiyyət böyük beynəlxalq tədbirlərin təşkili edilməsində dayanıqlılığı təmin etmək üçün ISO 2121 standartının milli səviyyədə tətbiqidir. Bu uğurlar bizim təkcə tədbirlərin uğurlu icrasına deyil, həm də uzunmüddətli institusional təsirə olan sadiqliyimizi göstərir", - o vurğulayıb.



# Müharibələrin urban fəsadları



Bakının böyük uğurla ev sahibliyi etdiyi BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə baş tutan "Dirçəliş və urbisid: Dayanıqlı şəhərsalma və davamlı icmalar" adlı beynəlxalq paneldə aparılan müzakirələr bütün dövrlər üçün aktualdır. Bəli, insan var olandan bəri dirçəlişə can atıb, qurub-yaradıb, yeni-yeni yaşayış məntəqələri salıb. Amansız müharibələr isə yalnız insanların həyatına son qoymayıb, eyni zamanda, şəhər və kəndlər, tarixi abidəlr, mülki infrastruktur dağıdılıb. Bütün müharibələrdən geriyə kədərli izlər qalıb. Müharibələrin yol açdığı dəhşətli urban fəsadları aradan qaldırmağa, dağıntıları bərpa etməyə, həyatı yenidən başlamağa isə böyük həcmlərdə maliyyə vəsaiti və zaman lazım gəlib.

**Tarixdə dəhşətli urbisid nümunələri**

Müharibələr zamanı yaşayış məntəqələrinin dağıdılması latın dilindən götürülmüş və "şəhərə qarşı zorakılıq" kimi tərcümə olunan "urbisid" termini ilə ifadə olunur. Bu termin 1990-cı illərin əvvəllərində Sarayevo (Bosniya və Herseqovina) hadisələrindən sonra geniş şəkildə istifadə olunmağa başlanıb. Xatırladaq ki, burada müharibə və şəhərin 4 il mühasirədə qalması faciəvi nəticələrə gətirib çıxarıb.

Bəhs olunan paneldə çıxış edən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev urbisid anlayışının beynəlxalq hüquq və təhlükəsizlik kontekstində daha geniş tanınmasının vacibliyini vurğulayıb. O, urbisid fenomenini müharibə şəraitində şəhərlərin və yaşayış məkanlarının məqsədli şəkildə dağıdılması, onların sosial-mədəni kimliyinin silinməsi və əhalinin geri dönüş imkanlarının aradan qaldırılması kimi xarakterizə edib.

Tarixdən müharibələrin urbisid fəsadlarına aid çoxlu sayda misallar sadalamaq mümkündür. Urbisid fəsadlarının necə ağır çətinliklərə yol açdığını təsəvvür etmək üçün zaman və müxtəlif mənalarda bizə daha yaxın olan İkinci Dünya müharibəsinə aid bəzi faktları sadalamaq kifayətdir. Bu müharibədə hərbi əməliyyatların əhatə etdiyi ərazi Birinci Dünya müharibəsindəkindən 5,5 dəfə çox idi. Təxminən 70 dövlətin qatıldığı, 60 milyondan çox insanın həyatını itirdiyi və iştirakçı dövlətlərə 4 trilyon ABŞ dolları dəyərində xərclə başa gələn bu müharibədə həm də bir sıra şəhərlər böyükmiqyaslı dağıntılara məruz qalıb. Bəşər tarixində ən dəhşətli urbisid hadisələrindən biri İkinci Dünya müharibəsinin sonlarında ABŞ tərəfindən üç gün ərzində Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə atom bombalarının atılması nəticəsində yaşanıb. 6 avqust 1945-ci ildə atom bombası Xirosimaya, həmin tarixdən üç gün sonra isə 9 avqust tarixində Naqasakiyə atılıb. Yaponiyanı müharibədə təslim etmək üçün məhz bu vasitədən istifadə edilib. 14 avqust 1945-ci ildə çıxılmaz vəziyyətdə qalan Yaponiya təslim olmaq məcburiyyəti qarşısında qalıb. Yapon imperator Hirahito amerikalı general Duqlas Makarturla İkinci Dünya müharibəsinin sona çatmasını rəsmiləşdirən və təsdiqləyən müqaviləni imzalayıb. İki atom bombasının Yaponiyaya atılması nəticəsində Xirosimada 140 mindən çox insan həlak olub. Naqasakidə isə nüvə silahının qurbanlarının sayı 70 mini ötüb. Xirosima və Naqasaki ölü şəhərlərə çevrilib. Hər iki yaşayış məntəqəsində və daha geniş coğrafiyada atom bombalarının yaratdığı urban fəlakəti onilliklər boyunca aradan qaldırmaq mümkün olmayıb.

İkinci Dünya müharibəsi zamanı ciddi urban fəsada məruz qalan Avropa şəhərlərindən biri Polşanın paytaxtı Varşava olub. Müharibə illərində bu şəhərin tikililərinin 80 faizdən çoxu yerlə-yeksan edilib, milyonlarla sakin həyatını itirib. Şəhərin tarixi mərkəzi olan Köhnə Şəhər (Stare Miasto) və yaşayış binaları nasistlərin qəsdən məhv etmə planı nəticəsində 90 faizə qədər dağıdılıb.

İkinci Dünya müharibəsinin urbisid fəlakətləri həmçinin bu qanlı savaşı başlayan Almaniyanın şəhərlərindən də yan ötməyib. Xüsusilə də müharibənin sonlarına doğru Almaniyanın ayrı-ayrı şəhərləri ağır döyüşlərə, havadan bombardmanlara səhnə olub. O cümlədən müttəfiqlərin kütləvi aviasiya bombardmanları nəticəsində Drezden alov fırtınalarına bürünüb, şəhərin tarixi memarlığı tamamilə məhv olub. Həmçinin Köln, paytaxt Berlin, Belqrad (Yuqoslaviya) və digər iri şəhərlər də İkinci Dünya müharibəsində strateji və dinc obyektlərin məqsədyönlü şəkildə bombalanması ilə urbisid səviyyəsində dağıntılara məruz qalıb.

Azərbaycanın da daxil olduğu keçmiş SSRİ-nin isə İkinci Dünya müharibəsində 1710 şəhər və qəsəbəsi, 70 min kəndi tamamilə və ya qismən dağıdılıb. Dağıntılara məruz qalan əsas şəhərlər arasında Stalinqrad (indiki Volqoqrad), Minsk, Kiyev, Sevastopol və Leninqrad (indiki Sankt-Peterburq) şəhərləri olub.

**Azərbaycan şəhərləri sistemli şəkildə dağıntılara məruz qalıb**

Azərbaycan şəhərləri də Ermənistanın urbisid siyasətinə məruz qalıb. Otuz illik işğal dövründə məqsədli şəkildə viran qoyulan şəhər və kəndlərimizin siyahısı çox uzundur. Bu siyahəda 9 Azərbaycan şəhərinin adı var. Ermənistan eyni zamanda Azərbaycanın yüzlərlə kəndini qəsdən dağıdıb, bütün mədəni və dini abidələrimizi viran qoyaraq, talayaraq, onları əsl urbisid və kultursid (mədəniyyətə qarşı genosid) nümunələrinə çevirib.

Ağır urbisid siyasətinin kədərli izlərinin qaldığı şəhərlərimizdən biri Ağdamdır. Ağdam şəhəri 23 iyul 1993-cü il tarixindən başlayan işğaldan əvvəl bütün bölgənin ticarət mərkəzi sayılırdı. İşğaldan sonra isə ağ şəhərin qara günləri başlayıb. Erməni vandalizminin bütün cəhətlərini Ağdamın timsalında görmək mümkündür. İkinci Qarabağ müharibəsi bitəndən sonra məlum oldu ki, şəhərdən əsər əlamət yoxdur, burada bir bina da salamat qalmayıb. Göz işlədikcə uzanıb gedən ərazilərdə yalnız Cümə məscidinin qalıqlarını görmək mümkün idi. Düşmən məscidin qalıqlarını artilleriya atəşlərinin tənzimlənməsi üçün saxlayıb. Ağdam o dərəcədə dağıntıya məruz qalıb ki, xarici mütəxəssislər onu "Qafqazın Xirosiması" adlandırıblar.

İşğal illərində Füzuli, Zəngilan və Cəbrayıl şəhərləri də oxşar aqibətlə üzləşiblər. Müharibə cinayətləri həmçinin ön xətdən uzaqda yerləşən Gəncə, Bərdə, Mingəçevir kimi şəhərlərimizdən də yan keçməyib. İkinci Qarabağ müharibəsi günlərində həmin şəhərlərə ermənilər tərəfindən qadağan olunmuş silahlardan uzaq mənzilli raketlər atılıb.

Ancaq Azərbaycanın və dünyanın ayrı-ayrı şəhərlərinin müharibə cinayətlərinə məruz qalmaları arasında kəskin fərq var. Bu fərq də ilk növbədə ondan ibarətdir ki, Ermənistan Azərbaycan şəhərlərinə qarşı urbisid siyasətini yalnız döyüşlər zamanı, müharibə günlərində deyil, bütün otuz illik işğal dövründə həyata keçirirb. Yuxarıda bəhs olunan paneldə aparılan müzakirələrdə bu cəhətə xüsusi diqqət çəkilib. Fərid Şəfiyev diqqətə çatdırıb ki, Qarabağda baş verən urbisid digər nümunələrdən fərqlənərək hərbi əməliyyatlardan sonra sistemli şəkildə həyata keçirilib və məqsəd yalnız şəhərlərin dağıdılması deyil, həm də azərbaycanlı əhalinin həmin ərazilərə qayıdışının qarşısını almaq, bölgənin mədəni yaddaşını və tarixi kimliyini silmək olub. O, ATƏT-in 2005-ci il Faktaraşdırıcı Missiyasının hesabatına istinad edərək Ağdam, Cəbrayıl, Füzuli, Zəngilan və digər rayonların tamamilə dağıdıldığını, yaşayış məntəqələrinin talan edildiyini və tikinti materiallarının belə sökülərək aparıldığını qeyd edib. Bildirilib ki, urbisidin əsas göstəriciləri kimi fiziki dağıntı, etnik təmizləmə və şəhərlərin mədəni kimliyinin dəyişdirilməsidir. Xüsusilə Laçın və Kəlbəcərin Ermənistan üçün strateji əhəmiyyət daşıdığı və bu ərazilərdə məskunlaşdırma siyasətinin həyata keçirildiyi diqqətə çatdırılıb. BMTM-in rəhbəri, həmçinin urbisidin "əlavə zərər" deyil, siyasi və ideoloji məqsədlərlə həyata keçirilən idarəetmə strategiyası olduğunu, şəhər məkanlarının məhv edilməsinin yeni nəzarət və hakimiyyət formalarının qurulmasına xidmət etdiyini deyib.

Paneldə aparılan müzakirələrə qoşulan qonaqlar bildiriblər ki, müasir dövrdə urbisidin müharibə aləti kimi istifadəsi şəhərlərin sosial-iqtisadi inkişafına və dayanıqlılığına ciddi zərbə vurur. Onların sözlərinə görə, münaqişələr zamanı şəhərlərin, yaşayış məntəqələrinin, mühüm infrastruktur obyektlərinin və mədəni irs nümunələrinin məqsədli şəkildə dağıdılması yalnız fiziki mühitə deyil, həm də cəmiyyətin sosial strukturuna və tarixi yaddaşına ağır təsir göstərir. Qarabağ və ətraf bölgələrdə baş verən dağıntılar bunun bariz nümunəsidir. Şəhərlərin və kəndlərin viran qoyulması, infrastrukturun məhv edilməsi və mədəni irs abidələrinin dağıdılması regionun uzun illər ərzində inkişaf imkanlarını məhdudlaşdırıb.

**Qarabağın dirçəlişi - ərazilərin minalanması işlərin gedişinə mane olan əsas amillərdən biridir**

Azərbaycan işğaldan azad olunmuş ərazilərin bərpasında və urbisid siyasətinin bütün təzahürlərinin aradan qaldırılmasında dünyaya nümunə göstərir. Qarabağın dirçəldilməsində Azərbaycanın təqdim etdiyii model dayanıqlılıq, ərazi reinteqrasiyası və insanyönümlü inkişaf prinsiplərinə əsaslanır.

Artıq uğurlu nəticələr barədə də bəhs etmək mümkündür. Azərbaycan işğaldan azad edilmiş ərazilərin bərpasına zəruri infrastruktur yaratmaqla başlayıb. Müharibədən sonrakı beş il ərzində inşa olunmuş tunellərin uzunluğu 70 kilometrdir. Daha beş tunelin tikintisi də nəzərdə tutulur. Planlaşdırılan 500 körpüdən 435-i inşa olunub. Bununla yanaşı, elektrik stansiyaları, su təchizatı kəmərləri, su anbarları, evlər, məktəblər, xəstəxanalar, üç beynəlxalq hava limanı tikilib, dəmir yolları çəkilib. Hazırda əsas investisiyalar yaşayış məntəqələrinin bərpasına yönəldilir. Məskunlaşma da uğurla gedir. Artıq işğaldan azad olunmuş ərazilərdə təxminən 85 min soydaşımız yaşayır və yaxud çalışır. Bu ilin sonunadək daha 30 min vətəndaşın öz doğma dədə-baba torpaqlarına köçünü təmin etmək hədəflənib.

Panel müzakirələrində həmçinin işğaldan azad edilmiş ərazilərdə quruculuq-bərpa işlərinə mane olan amillərə də diqqət çəkilib. Azərbaycan Respublikası Prezidentinin Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi Vahid Hacıyev vurğulayıb ki, işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma prosesində ən böyük çətinlik mina problemi olub. "ANAMA-nın fəaliyyəti nəticəsində minatəmizləmə işləri sürətləndirilib və təhlükəsiz yaşayış mühitinin formalaşdırılması istiqamətində mühüm addımlar atılıb", - deyə Vahid Hacıyev qeyd edib.

Beynəlxalq təşkilatların da təsdiqlədiyi kimi, Azərbaycan dünyada minalarla ən çox çirklənmiş ölkələr sırasında yer alır. Mütəxəssislərin qənaətinə görə, işğaldan azad edilmiş ərazilərdə 1,5 milyondan çox mina və partlamamış hərbi sursat mövcuddur. Həmin ərazilərdə mina terroru aradan beş il ötəndən sonra da davam edir. Bütövlükdə, İkinci Qarabağ müharibəsindən sonrakı dövrdə 400-dən çox azərbaycanlı mina qurbanı olub. Beləliklə, hazırda ekoloji zərər və genişmiqyaslı mina çirklənməsi azad edilmiş ərazilərdə həyatın bərpası prosesində əsas çağırışlardan biridir.

*Mübariz FEYİZLİ*

# ABŞ Tayvana 14 milyard dollarlıq silah tədarükünü dayandırıb



ABŞ Tayvana 14 milyard dollar dəyərində potensial silah tədarükünü İrana qarşı hərbi əməliyyatın təmin edilməsi üçün lazım olduğundan müvəqqəti dayandırıb.

"Report" xəbər verir ki, bu barədə Hərbi Dəniz Qüvvələri naziri əvəzi Hanq Kao Konqresin Senatının müvafiq komitəsində keçirilən dinləmələr zamanı bildirib.

Tayvana 14 milyard dollarlıq Amerika silahlarının mümkün satışının təsdiqlənməsindəki fasilə ilə bağlı məsələni şərh edən Kao deyib: "Mən bu məsələ ilə bağlı Tayvan tərəfi ilə danışıqlar aparmamışam və biz onlara silahların bir hissəsinin satışını həyata keçirmişik. Lakin hazırda "Epik qəzəb" [əməliyyatı] üçün kifayət qədər silahın olduğuna əmin olmaq məqsədilə biz bu tədarükləri dayandırmışıq. Onlardan bizdə kifayət qədərdir, lakin biz sadəcə lazım olan hər şeyə malik olduğumuzdan əmin olmaq istəyirik".

Onun sözlərinə görə, "administrasiya bunu məqsədəuyğun hesab etdikdə" xaricə silah tədarükü bərpa olunacaq.

ABŞ Prezidenti Donald Tramp ötən həftə Çinə baş tutmuş dövlət səfərinin yekunlarına əsasən bildirib ki, Çin lideri Si Cinpinlə Tayvana 14 milyard dollar dəyərində silahların mümkün satışı məsələsini müzakirə edib, lakin bu sövdələşmə üzrə yekun qərar hələ qəbul olunmayıb.

# Parlament seçkisi, yoxsa vətəndaş qarşıdurması?

## Ermənistanda vəziyyət nəzarətdən çıxır - hakimiyyət planların ünvanını göstərir

Ermənistanda son aylarda müşahidə olunan siyasi gərginlik artıq adi seçki rəqabəti çərçivəsindən çıxaraq daha təhlükəli mərhələyə daxil olmaqdadır. Hakimiyyət uğrunda mübarizə xüsusilə Baş nazir Nikol Paşinyanla rusiyayönümlü siyasi dairələr arasında açıq qarşıdurma formasını alır. Yerli mediada yayılan məlumatlar və ekspert rəyləri göstərir ki, seçkilərdən sonra ölkədə vəziyyət daha da gərginləşə, hətta daxili qarşıdurma səviyyəsinə çata bilər. Ermənistan cəmiyyətində uzun illərdir davam edən siyasi parçalanma, Qarabağ müharibəsindən sonra yaranmış böhran və xarici güclərin təsiri bu prosesi daha da dərinləşdirən əsas amillər hesab olunur.

Müxtəlif siyasi düşərgələr artıq bir-birini dövlətçiliyə təhlükə yaratmaqda ittiham edir. Paşinyan tərəfdarları keçmiş hakimiyyət komandalarını Moskvanın maraqlarına xidmət etməkdə ittiham edir. Hətta Paşinyan keçmiş prezident, hazırdakı seçki kampaniyasında isə əsas rəqiblərindən biri olan Robert Köçəryanın bir neçə il əvvəl internetdə yayılmış səs yazısını yenidən gündəmə gətirib. Həmin səs yazısında Ermənistanın keçmiş prezidenti Robert Köçəryanın Rusiya prezidenti Vladimir Putinə müraciətlə "Məni siyasətə siz qaytardınız, indi isə siyasətdən çıxmağımı təmin etməyinizi xahiş edirəm" dediyini xatırladıb. Paşinyan xatırladıb ki, həmin vaxt müxalifət bu səs yazısının süni şəkildə hazırlandığını deyirdi. Ermənistan baş naziri həmin vaxt beynəlxalq ekspertiza keçirilməsini təklif etdiyini, lakin bunun edilmədiyini deyib. İndi isə Paşinyan həmin çağırışı yenidən təkrarlayıb və iyunun 7-dək ekspertiza keçirilməsini istəyib. Ermənistan hökumətinin başçısı daha sonra olduqca sərt ifadələr işlədib: "Ölkənin baş naziri kimi zəmanət verirəm ki, həmin səs yazısı həqiqidir. Orada danışan şəxs Robert Köçəryanın özüdür. Bu, sadəcə üçbaşlı müharibə partiyası deyil, həm də üçbaşlı casuslar partiyasıdır".



deyil ki, mayın 19-da Eçmiədzində toplanan kilsə rəhbərliyi məhz seçkiqabağı prosesi də müzakirə edib. Belə ki, katolikos II Qareginin sədrliyi ilə keçirilən toplantının gündəliyinə kilsə əleyhinə kampaniya, həbsdə olan kilsə nümiayəndələrinin və siyasətçilərin (burada söhbətin Samvel Karapetyandan getdiyi şübhə doğurmur), hökumətin təşəbbüsü ilə Ermənistan ordusunda və cəzaçəkmə müəssisələrində ruhani xidmətin dayandırılması ilə bağlı məsələlər daxil olub. Ermənistan mətbuatının yazdığına görə, kilsə şurası AŞPA (Avropa Şurası Parlament Assambleyası) seçkiqabağı nümayəndə heyətinin aralıq bəyanatını, Ermənistanda parlament seçkiləri ərəfəsində ölkədəki narahatedici vəziyyəti və seçkiqabağı və seçkisonrası məsələlərlə bağlı bəyanat da verib. Bəyanatda bildirilib ki, "Ali Ruhani Şura Ermənistanda keçiriləcək parlament seçkiləri öncəsi seçki kampaniyası zamanı repressiya və qanunsuz güc tətbiqi də daxil olmaqla, qəbuledilməz təbliğat metodlarından dərin narahatlıq keçirir". Kilsə AŞPA-nın seçkiqabağı nümayəndə heyətinin 13 may tarixli aralıq bəyanatında qeyd olunan Erməni Apostol Kilsəsinin "siyasətdə misli görünməmiş iştirakı"nın qiymətləndirilməsini çaşdırıcı hesab edir. Bu isə onu göstərir ki, kilsə həqiqətən də siyasi oyunların bir parçasına çevrilib və qarşıdakı dövrdə vətəndaş qarşıdurmasının əsas körükləyici vasitəsi kimi çıxış edə bilər.

**Paşinyana hədə: "səni öldürəcəyik"...**

Ermənistanda mümkün vətəndaş qarşıdurması ehtimalını gücləndirən əsas məqamlardan biri də son günlər kriminal qrupların və radikal çevrələrin fəallaşmasıdır. Sosial şəbəkələrdə müxtəlif cinayətkar qruplarla əlaqələndirilən şəxslərin siyasi mesajlar paylaşması, hakimiyyətə qarşı açıq təhdidlər səsləndirməsi ciddi narahatlıq doğurur. Xüsusilə Nikol Paşinyana qarşı sui-qəsd planları ilə bağlı yayılan iddialar ölkədə təhlükəsizlik vəziyyətinin nə qədər həssas olduğunu göstərir. Yeri gəlmişkən, bir neçə gün öncə Ermənistanın sosial şəbəkə platformalarında yayılan video da deyilənləri təsdiqləyir. Belə ki, videoda beş maskalı şəxs hazırki baş nazir Nikol Paşinyanı zorakılıqla hədələyir. Onlar iddia edirlər ki, Paşinyan "hər şeyə görə cavab verəcək". Videodakı kişilər silahlıdırlar, əllərində avtomatlar var. Onlar Qarabağ ləhcəsində danışır və "Nikol, səni öldürəcəyik" deyə xəbərdarlıq edirlər.

Bundan əlavə, maskalı şəxslər Ermənistan vətəndaşlarını qarşıdan gələn seçkilərdə Paşinyana səs verməməyə çağırıblar. Buna görə də, videonun yaradıcılarının parlament seçkilərinin nəticələrinə çox həssas olduqlarını güman etmək olar. Qeyd edək ki, video ilə bağlı artıq cinayət işi açılıb və videoda "təhdid, real qətl təhlükəsi" olduğu vurğulanıb.

**Sui-qəsdçilərə cavab: hamınızı diz çökdürəcəyəm**

Paşinyan isə bu videonun keçmiş prezidentlər Serj Sarkisyan və Robert Köçəryan, eləcə də rusiyalı iş adamı Samvel Karapetyan və tanınmış erməni sahibkar Qaqik Çarukyan tərəfindən sifariş edildiyini irəli sürüb. Erməni ekspertləri hesab edirlər ki, videonun yayılmasında məqsəd əhali arasında panika yaratmaq, seçkidən sonrakı vətəndaş müharibəsi ilə bağlı indidən "münbit şərait" yaratmaqdır. Bundan əlavə, onlar videonun Ermənistandan kənarda, məsələn, Rusiyada çəkildiyini istisna etmirlər. Hətta bir politoloq hadisəni "klassik Rusiya əməliyyatı" adlandırıb.

Paşinyan isə daha sərt danışıb: "Bu uşaqlara baxın, bu böyük oğlanlara baxın. Bunlar Rob (Robert Köçəryan), Taşir (Samvel Karapetyan, onun "Taşir" adlandırıldığı yer), Serjik (Serj Sarkisyan), Qaqonu (Qaqik Çarukyan) uşaqlarıdır. Sizə tərəf dönürəm, sizi bir-bir tapacağam və maskalarınızı lazımi yerə qoyacağam. Silahın lüləsindən danışmıram. Siz böyük oğlanlar, maskalarınızı çıxarın, çıxın, kim olduğunuzu görəcəyəm. Robu, Taşiri, Qaqonu və Serji sizinlə birlikdə diz çökdürəcəyəm".

**Qarşıdurma qaçılmaz olacaq...**

Beləliklə, gedən proseslər göstərir ki, Ermənistanda seçki sonrası dövr kifayət qədər mürəkkəb və riskli ola bilər. Hakimiyyətlə müxalifət arasında dərinləşən qarşıdurma, Rusiyanın bölgədəki maraqları, kilsənin mümkün fəallığı və radikal qrupların proseslərə qoşulması ölkəni təhlükəli ssenarilərlə üz-üzə qoyur. Əgər tərəflər kompromis yolunu seçməsə, hadisələrin küçə toqquşmaları və daha geniş daxili qarşıdurma mərhələsinə keçməsi mümkündür.

**Gümrüdəki hərbi baza seçkidən sonra...**

Hazırki hakimiyyətin bir sıra nümayəndələri yerli mediada Kremlin Ermənistandankı seçkilərdən sonra bir sıra planlar hazırladığını, eləcə də, müxalifət Qərbin maraqları təmin olunmayacağı təqdirdə güc tətbiqinə əl atma ehtimalını irəli sürürlər - bu isə o deməkdir ki, Ermənistan birmənalı şəkildə daxili siyasi təhlükəyə sürüklənməkdədir. Erməni siyasətçiləri hesab edir ki, Kreml Ermənistanın tam şəkildə Qərbə yaxınlaşmasına imkan vermək istəmir və bu səbəbdən ölkə daxilindəki siyasi təsir imkanlarını maksimum səviyyədə işə salmağa çalışır.

Ən təhlükəli ehtimallardan biri isə mümkün siyasi xaos fonunda Rusiyanın Ermənistandakı hərbi mövcudluğunun - Gümrüdəki hərbi bazanın proseslərə dolayısı və ya birbaşa müdaxilə etməsi ilə bağlıdır. Bu ssenari Ermənistanda açıq silahlı qarşıdurma təhlükəsini daha real formata salır. Bu isə bütövlükdə Cənubi Qafqazda təhlükəsizlik balansına təsir göstərəcək.

**Kilsə toplandı - təlimatlar hansı istiqamətlərdə olacaq?**

Mümkün qarşıdurma ssenarisinin pərdə arxasındakı qüvvə kimi isə kilsə təqdim olunur. Sirr deyil ki, Erməni Apostol Kilsəsinin hazırki hakimiyyət ilə münasibətləri heç də "isti deyil". Son bir neçə ayda kilsənin siyasi proseslərə, xüsusilə seçki ilə bağlı məsələlərə müdaxiləsi məhz nümayiş etdirdiyi səssizlik bir çox ekspert tərəfindən "fırtına qabağı sakitlik" kimi qiymətləndirilir. Çünki tarix boyu Ermənistanda kilsə yalnız dini institut deyil, həm də siyasi təsir mərkəzi kimi çıxış edib. Vurğulandığı kimi, Paşinyan hakimiyyəti ilə kilsə arasında münasibətlərin uzun müddətdir gərgin olması diqqət çəkir. Hakimiyyətin bəzi qərarları və Qərbə inteqrasiya istiqamətində atdığı addımlar ənənəvi dairələr tərəfindən milli kimliyə təhlükə kimi təqdim olunur. Bu fonda kilsənin rusiyayönümlü qüvvələrlə eyni mövqedən çıxış etməsi ehtimalı da güclənir.

Bir sıra erməni analitiklər hesab edir ki, seçkilərdən sonra küçə etirazlarının təşkilində və ictimai narazılığın yönləndirilməsində kilsə mühüm rol oynaya bilər. Bu isə onsuz da həssas olan siyasi vəziyyəti daha da mürəkkəbləşdirəcək. Təsadüfi

*P.İSMAYILOV*

# İran nüvə strategiyasını dəyişir?

## Danışıqlar baş tutmasa, ABŞ zərbələrə başlayacaq

Yaxın Şərq probleminin həlli istiqamətində yenidən gərginlik yaşanmaqdadır. Sülhlə bağlı təkliflərin çoxsaylı mübadiləsindən sonra ortaq nöqtənin tapılmaması müharibənin aktiv mərhələyə keçmə ehtimalını yaradıb. Qeyd edək ki, bir neçə gün öncə ABŞ prezidenti Donald Tramp Pentaqona İrana qarşı mayın 19-na planlaşdırılan yeni zərbələri ləğv etməyi və məqbul bir razılaşma əldə edilmədiyi təqdirdə tammiqyaslı hücuma hazırlaşmağı əmr edib. Ağ Ev rəhbəri qərarını Qətər, Səudiyyə Ərəbistanı və BƏƏ-nin xahişlərinə cavab olaraq təxirə saldığını bildirib.

Danışıqların əsas "kilid nöqtəsi" İranın nüvə strategiyası ilə bağlıdır. ABŞ İranın uranın zənginləşdirilməsi ilə bağlı planlarını birmənalı şəkildə istisna edir - son irəli sürülən təklifdə də məhz zənginləşdirilmiş uranın ölkə xaricinə daşınması qəti şəkildə qoyulmuşdu. Amma görünən budur ki, Tehran Vaşinqtonun bu tələbini yerinə yetirmək niyyətində deyil.

### Tehran uranı verməyəcək?

Belə ki, "Reuters" agentliyi İranın ali dini lideri Müctəba Xameneinin yüksək zənginləşdirilmiş uran ehtiyatlarının ölkədən ixrac edilməməsi ilə bağlı əmr verdiyini yazıb. Agentlik bu barədə İrandakı iki yüksək vəzifəli mənbəyə istinadən məlumat yayıb. Mənbələrdən biri bildirib ki, Xameneinin göstərişi və hakimiyyət daxilindəki konsensus zənginləşdirilmiş uran ehtiyatlarının ölkədən çıxarılmaması ilə bağlıdır. Nəşrin məlumatına görə, Xameneinin mövqeyi ABŞ prezidenti Donald Trampla danışıqları çətinləşdirə və Vaşinqtonla Tehran arasında razılığa gəlmək şansını azalda bilər. Lakin mənbələrə görə, MAQATE nəzarəti altında uranın yenidən qarışdırılması kimi tətbiq edilə bilən formullar da hələ aktuallığını qoruyur.

İsrail rəsmiləri Reuters agentliyinə bildiriblər ki, Tramp əvvəllər İsrail hakimiyyətinə İranın yüksək zənginləşdirilmiş uran ehtiyatlarının mümkün razılaşmanın bir hissəsi olaraq ölkədən çıxarılacağına və hər hansı bir sülh müqaviləsinə bu barədə bəndin daxil ediləcəyinə dair zəmanət verib. İsrailin Baş naziri Benyamin Netanyahu da əvvəllər İran zənginləşdirilmiş uran ehtiyatlarını məhv edib raket proqramını məhdudlaşdırana qədər münaqişənin davam edəcəyini bildirmişdi. ABŞ rəsmilərinin sözlərinə görə, İran əsasən İsfahanda təxminən 970 funt (təxminən 440 kq) yüksək zənginləşdirilmiş uran ehtiyatına malikdir. Agentliyin məlumatına görə, İran uranın köçürülməsinə qadağanı qarşıda yarana biləcək hər hansı bir təhdiddən yayınmaq üçün qoyur. Tehranın sülh danışıqları üzrə nümayəndəsi Məhəmməd Bağır Qalibaf da bildirib ki, açıq və gizli hərəkətlər ABŞ-ın hücumlara hazırlıq gördüyünü göstərir.

Ağ Ev Xameneinin göstərişi ilə bağlı şərh istəyinə cavab olaraq bildirib ki, "Tramp ABŞ-ın qırmızı xətlərini açıq şəkildə göstərib". ABŞ-ın vitse-prezidenti C.D.Vens bildirib ki, Vaşinqton İranın zənginləşdirilmiş uran ehtiyatları üzərində tam nəzarəti bərpa etmək niyyətindədir və nüvə materiallarının ölkədən çıxarılmasında israr edir. İran xarici işlər nazirinin müavini Səid Xətibzadə vurğulayıb ki, Tehranın zənginləşdirilmiş uranı Vaşinqtona ötürmək niyyəti yoxdur. Xatırladaq ki, may ayının ortalarında İranın xarici işlər naziri Abbas Əraqçi İranın Rusiyaya zənginləşdirilmiş uran ixracı təklifini müzakirə etməyə hazır olduqlarını bildirmişdi.

### Körfəz ölkələrinin xahişi ilə...

Bununla belə, danışıqlarla bağlı ümid də hələ tam bitməyib - İranın Tasnim xəbər agentliyi mayın 21-də ABŞ-ın yeni sülh müqaviləsi layihəsini İran hakimiyyətinə təqdim etdiyini yayıb. Tasnimin məlumatına görə, Vaşinqton sənədi münaqişə tərəfləri arasında vasitəçilik edən Pakistan vasitəsilə Tehrana təqdim edib. Qeyd edək ki, mayın 20-də ABŞ prezidenti Donald Tramp bildirmişdi ki, Vaşinqton sülh müqaviləsinin şərtlərinin qəbul edilməyəcəyi təqdirində İrana qarşı zərbələri davam etdirməyə hazırdır. O, həmçinin qeyd etmişdi ki, "düzgün cavabları almaq üçün" bir neçə gün gözləməyə hazırdır.



Bu ayın əvvəlində İran ABŞ-a hərbi əməliyyatların dayandırılması və sülh danışıqlarının başlanması üçün 14 bəndlik layihə planı da təqdim etmişdi. Bu plan ABŞ tərəfindən qəbul edilməmişdi.

"Əl-Ərəbiyyə" telekanalı isə bildirib ki, İran və ABŞ arasındakı yeni razılaşma layihəsi "bütün cəbhələrdə" hərbi əməliyyatların dayandırılmasını nəzərdə tutur və o, 10 bənddən ibarətdir. Saziş layihəsində quru, dəniz və hava daxil olmaqla, bütün cəbhələrdə dərhal, hərtərəfli və qeyd-şərtsiz atəşkəs; hərbi, mülki və ya iqtisadi infrastruktura zərbə endirməmək barədə qarşılıqlı öhdəlik; ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət etmək və daxili işlərinə qarışmamaq; Fars körfəzində, Hörmüz boğazında və Oman körfəzində gəmiçilik azadlığı və s. bəndlər nəzərdə tutulur.

## ABŞ rüsuma "yox" deyir, İran internet kabellərinə görə də tələb edir

"Sky News" yazır ki, Dövlət Katibi Marko Rubio ABŞ və İran arasında müharibəyə son qoymaq üçün razılaşmaya yaxın olmaqla bağlı müsbət əlamətlərin olduğunu bildirib. Bununla belə, o, "həddindən artıq nikbin olmaq istəmədiyini" qeyd edib. Rubio vurğulayıb ki, Tehran Hörmüz boğazından keçid üçün rüsum alsa, hər hansı bir razılaşma mümkün olmayacaq. O, bu cür cəhdləri tamamilə qanunsuz adlandırıb: "Dünyada heç kim rüsum sistemini dəstəkləmir. Bu, baş verə bilməz. Bu, qəbuledilməz olardı".

ABŞ prezidenti Donald Tramp da bildirib ki, Vaşinqton İranın Hörmüz boğazından keçən gəmilər üçün rüsum almasına qarşıdır. "Biz Hörmüzün açıq olmasını istəyirik. Biz rüsum istəmirik. Bu, beynəlxalq su yoludur", - Tramp CNBC tərəfindən yayımlanan brifinqdə bildirib.

Amerika lideri həmçinin deyib ki, gəmilər ABŞ-ın təsdiqi olmadan İrana daxil olmur və ya çıxmır. Trampın sözlərinə görə, Tehran bu səbəbdən gündəlik 500 milyon dollara qədər maliyyə itirir.

İran isə Hörmüz boğazında gəmilərlə yanaşı fiber kabellər üçün də rüsum tələb etmək qərarına gəlib. CNN yazır ki, Tehran Hörmüz boğazından keçən dənizaltı internet kabellərinin istifadəsinə görə ödəniş tətbiq etməyi düşünür. Kanalın məlumatına görə, bu tədbirlər Google, Microsoft, Meta və Amazon da daxil olmaqla böyük texnologiya şirkətlərinə təsir göstərə bilər.

### Həcc ziyarətinin ardınca İslamabadda...

İran ilə ABŞ arasında danışıqların yeni mərhələsi yaxın günlərə təsadüf edə bilər. Mənbələr İran International-a bildiriblər ki, may ayının sonunda Həcc ziyarətinin əsas ayinləri başa çatdıqdan sonra İslamabadda İran-ABŞ danışıqlarının yeni mərhələsi keçiriləcək. Onların sözlərinə görə, görüş müsəlmanların Məkkə və Mədinəyə ziyarətindən sonra baş tutacaq. Mənbələr həmçinin bildiriblər ki, Pakistanın müdafiə nazirinin Tehran və Vaşinqton arasında razılaşmanın yekun layihəsinin tamamlandığını elan etmək üçün İrana səfəri gözlənilir.

*SADİQ*

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




## Şənbə üçün nəzm



Qanadlı ayaqlarla yol gedən zaman,
Barmaqlarda gizlənən bir hikmət varmış:
"Bu da keçər..." deyə pıçıldayan üzük,
Yaralara gülümsər, ehtirasa qarışmış.

Şad-xürrəm yaşamağı öyrədir insana,
Qorxmuş dünyanın içində dik dayanmağı.
Quzğunlar da bir gün anlayacaq bəlkə -
Göylər qu quşlarını sevir hər axşamı.

Sinəsində ürək gəzdirən bəndələr,
Kinlərinin, vədlərin yorğun əsirləri...
Bilsinlər: bəraət yazılmayıb heç vaxt
Əzabların alnına, ağrı səhifələri.

Həyat əmr verib yaşamağa insanı
Zəfər soraqlı son nəfəsinə qədər.
Bir müdrikin kəlamı düşməsin yadından:
Nə gəlirsə ömrünə - inan, "bu da keçər..."

***

Bu şəhəri sevirəm - yuxusuz gecələri,
Doğma ocaq nəfəsi kimi isti küçələri.
Bakir zülmət qoynunda ağlımı itirmişəm,
Bir şəhərin sevgisinə çevrilmişəm beləcə.

Bu şəhərdə doğulub yenidən böyümüşəm,
Dumanını nəfəs tək çəkmişəm içimə.
Dizlərimə güc verib, ruhumu əyməyib,
Sığınacaq olubdur ən çətin günlərimə.

Burda xəyallar belə tavana çevriləndə
İnsan göyə yaxınlaşır - qəribə sirr kimi.
Yaşıllığa bürünmüş bir kareta tək gəzir
Məni küçə-küçə bu şəhər sakitcə indi.

Zaman qırış salmayıb onun gözlərinə,
Pozulmayıb dünyanın çirkli nizamıyla.
Yaşayacaq uzun illər nəfəsimdə belə -
Mən getmərəm bu şəhərdən heç yana...
heç yana.

***

Həyat dalan deyil, düz bucağı yoxdur,
Bu dünya girdədir - hikməti bundadır.
Kainat şəfəqini yalnız ona verir
Qəlbində böyük sevgi yaşadan adamdır.

Biz də bu dünyanın bir zərrəsi kimi
Su, qan, torpaq, ətlə yoğrulmuşuq axı.
Fanidir hər səltənət, fanidir şərbətlər,
Ömür keçib gedəndə qalır insan haqqı.

Həyat dalan deyil - özünə sual ol,
Öz içində cavab tap gecənin yerində.
Bir gün güzgü önündə dayanıb
görəcəksən
Əvvəlini, sonunu öz baxışlarının içində.

Qurbansız qurbangah yoxdur bu dünyada,
Şam yanır - istisini ayırır özündən.
Göylər qırış toxuyur yorğun üzlərimizə,
Allah qalib çıxır yenilmiş şeytanın
üstündən.

***

Qaranlıq səmada işıqlı möhür var,
Ulduzlar yağış kimi tökülür göylərdən.
Qaçmağa yer yoxdur ədalət hökmündən,
İnsan dərisini soyur sanki göy hərdən.

Göylərin altında hamımız qonağıq,
Kimi yuxudadır, kimisi oyaq.
Bir gün görünməyən divar önündə
Hamı dua edəcək titrəyərək ayaq.

Bu dünya fanidir, heç kim günahsız deyil,
Mələyi cinlərdən seçmək çətindir yenə.
Qaranlıq səmada işıqlı möhür tək
Bir həqiqət qalacaq insanın üstünə.

Tanrı, min şükür oyanan ürəyimə,
Döyündüyüm günə, saata, zamana.
Sinəmdə yuva salan böyük kainata,
Səbr verən o görünməz imtahana.

İrinsiz yaralara şükür bu ömürdə,
Səssiz keçən illərə, sınanmağıma.
Həyat min yol dartıb qıraqlarımdan,
Yenə dönməmişəm öz inadımıdan.

Sən arxamsan, dayağımsan həyatda,
Nəzərini çəkmədin heç zaman məndən.
Savabım da, günahım da boynumda
mirvari
Diriliş günü kimi keçir hər həftəm.

***

Ey insan, sən çöldən tapılmamısan,
İnsandan doğulmusan - insan adın var.
Qoru ruhunu da, adını da daim,
Ən böyük mükafatın elə bunlar.

Ana duası, ata nəfəsi
Qol-qanad verir insan ömrünə.
Həyat sevinc ilə kədərin qarışığıdır,
İnsanlıq yaraşır yalnız insana.

Bir gün əcəl gəlib səni çağıranda
Zəhmətin keçəcək gözlərinin önündən.
Və səni yola salan insanların dilindən
Bir rəhmət qalxacaq səmaya dərindən.

Daş üstə yazılar doğumla ölüm,
Ömür çox qısadır baxa bilsən sən.
Xatirələrdə yaşayan insanlar
Öləndən sonra da yaşayır hərdən.







*Nigar Həsənzadə*

# Mətnlər yalan danışa bilmir?

## Lap yaxşı da danışır. Fəqət qırx gün sonra bütün paxırlar açılmağa başlayır...



*Məqsəd Nur*

Və bu "açılma"lar min il də çəkə bilər. Bircə həqiqət var - gec, ya tez, mətn öz nüvəsini partladır. Eynən get-gedə şişən, böyüyən planetlər kimi... Mətnlər də fizikanın qanunları ilə "işləyir". Ədəbiyyata gəlib çıxanadək onlar kimyadan da "test verir". Bir sözlə, heç bir mətnin aldatmaq şansı yoxdur. Hara tələsirik ki, biz də Süni İntellektin (Sİ) yaratdığı tər-təzə mətnlərin vaxtını gözləyəcəyik...

Bu həftə İngiltərədə nüfuzlu, ingilisdilli qısa hekayələr müsabiqəsinə yekun vurulub, qalib də müəyyənləşib (Mənbə: The New York Times). Kim (nə) olsa yaxşıdır? Sİ. Belə xəbərləri tez-tez eşidirik, eşidəcəyik. Diqqətçəkən məqam odur ki, bu müsabiqə az qala dünyanın yarısını - Avstraliya və Afrikanı, ingilisdilli ədəbi çevrə birliklərini əhatə edir. Keçmiş koloniyalarda yaşayan müəlliflər öz ana dillərində deyil, imperiyanın dilində hekayələr yazaraq əsərlərini həvəslə müsabiqəyə göndəriblər. Nəticədə isə insan arxa planda qalıb...

Bu cür birlik hekayələri ingilis dilinin ədəbi-bədii ehtiyatlarını qoruyub-yaşatmaq məqsədi daşıyır. Eyni məqsədlərlə Rusiya və Fransada, o cümlədən digər keçmiş imperiya mərkəzlərində də birlik və QHT-lər fəaliyyət göstərir. Məsələ burasındadır ki, Sİ (Süni İntellekt) daha çox "böyük" dilləri istismar edə bilir, onun "işğalçılıq" siyasəti "kiçik", dillərdən yan keçməyə çalışır. Hələlik. Lakin gələcək illərdə Sİ bütün digər dil və mədəniyyətlərə, adət-ənənələrə əl atacaq. Təxminən, əsl hərşeyşünas olacaq. Bax onda, əsl "ölüm-dirim" savaşı başlayacaq. Əcəba, "kiçik" dillər və mədəniyyətlər özlərini necə aparacaq? Yoxsa heç bir siyahıda adları da çəkilməyəcək, itib-gedəcəklər?

Hər şeyi - kəlamı və kamalı Füzulidən öyrənib yeni mətnlər yaradan şairlər hələ də içimizdədir. Lakin Füzulinin də gedib-çata bilmədiyi dil və məna şifrələri günümüzdə də bağlı qapılar arxasında gözləyir - ya hansısa mətnin partlayış kimyasına dönəcək, ya da sirr qapılarının arxasında ölüb-qalacaq. Amma yerindən çıxdısa, gizlənə bilməyəcək...

Həqiqət varsa, mətn də var. Bəlkə dünyanı "kiçik" dillərin "böyük" mətnləri "xilas" edəcək?

# Sağlam ətraf mühit sağlam gələcəkdir

## Ekoloji təhlükələrə qarşı mübarizə aparmalıyıq...

Bəzi insanlar düşünür ki, bir ağacın kəsilməsi böyük problem deyil. Lakin unudurlar ki, həmin ağac illərlə havanı təmizləyib, quşlara yuva olub, torpağı eroziyadan qoruyub və səssiz şəkildə insanlara həyat bəxş edib. Buna görə də təbiətdə məhv edilən hər bir canlı əslində insan həyatından qoparılan bir parça deməkdir.

Hazırda dünyada baş verən iqlim dəyişiklikləri, qlobal istiləşmə, meşə yanğınları, quraqlıq, su qıtlığı və hava çirkliliyi artıq təkcə alimlərin araşdırdığı mövzular deyil. Bu, milyonlarla insanın gündəlik həyatına təsir edən ciddi problemlərə çevrilib. Çünki bir ölkədə havaya buraxılan zəhərli tullantının təsiri başqa bir qitədə yaşayan insanların sağlamlığında hiss olunur. Ekoloji problemlər sərhəd tanımır, millət ayırmır və insanlar arasında sosial vəziyyətinə görə seçim etmir. Ona görə də bu məsələlər artıq tək bir dövlətin deyil, bütün bəşəriyyətin ortaq problemi hesab olunur, onların həlli üçün insanların birlikdə hərəkət etməsi zəruri hala çevrilib.

Bu gün ölkəmizdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi işçilərinin peşə bayramıdır. Prezident İlham Əliyevin 16 may 2007-ci il tarixində imzaladığı sərəncama əsasən, ölkəmizdə hər il 23 may Ekologiya və Təbii Sərvətlər Nazirliyi işçiləri günü kimi qeyd olunur. Təbiətə sevgi və qayğı göstərən, onun həyatımızdakı rolunu dərk edən hər kəs başa düşür ki, bu gün sadəcə ekoloqların deyil, təbiətin keşiyində duran hər kəsin bayramıdır.

Ölkə başçısının imzaladığı fərmanlarda, təsdiq etdiyi proqramlarda ekoloji mühitin yaxşılaşdırılması məqsədilə nəzərdə tutulan hədəflərin reallaşması üçün zəruri vəzifələr müəyyənləşdirilib. Eyni zamanda, biomüxtəlifliyin mühafizəsi, meşəçiliyin inkişafı, yaşıllıqların artırılması və su ehtiyatlarının davamlı idarə edilməsi sahəsində müsbət nəticələr əldə olunub.



Xatırladaq ki, 2023-cü il dekabrın 25-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncam imzalamışdı. Bu sərəncam ətraf mühitə qayğının dövlət üçün hansı dərəcədə prioritet məsələ olduğunu təsdiq edirdi.

Azərbaycan hökuməti iqlim dəyişmələrinə bütün dünyanı narahat edən ən qlobal problemlərdən biri kimi həssas yanaşaraq "yaşıl mühit" quruculuğunda dayanmadan səylərini artırır. Atmosferdə oksigenin miqdarını artırmağın ən optimal üsulu "yaşıl iqtisadiyyat"ın inkişafına nail olmaqdır ki, hazırda bu istiqamətdə davamlı layihələr icra olunur. Xüsusilə də Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında mövcud potensialdan istifadə olunması "yaşıl iqtisadiyyat"a əvəzsiz töhfələr verməkdədir.

Ölkəmiz 2024 ilin noyabr ayında postsovet məkanında ilk dəfə olaraq COP29 kimi mühüm beynəlxalq tədbirə ev sahibliyi etdi. Bu tədbir də ölkəmizdə "yaşıl ətraf mühit" quruculuğunda töhfəverici rol oynadı.

Paytaxtımız bu il də 17-22 may tarixlərində Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) ev sahibliyi edib. COP29 sübut etdi ki, Azərbaycan regionda yaratdığı reallıqlar fonunda etibarlı tərəfdaş və məsuliyyətli ev sahibi kimi, məsələlərin həllində nəticəyönümlü fəaliyyət ortaya qoymağı bacarır. Bu baxımdan, WUF13-ü COP29-un məntiqi davamı kimi, beynəlxalq ictimaiyyətin respublikamıza artan etimadı və etibarı olaraq dəyərləndirə bilərik. Həm COP29, həm də WUF13 göstərir ki, ölkəmiz bu gün nəinki regional, o cümlədən də qlobal məsələlərin həllində faydalı dialoq məkanına çevrilib və bu proses davamlılığını qoruyub saxlayır.

Sözsüz ki, ətraf mühitlə bağlı çoxsaylı tədbirlərin icrasında yenə də əsas məsuliyyət və yük ekoloqların üzərinə düşür. Sənaye inkişaf etdikcə, elmi tərəqqi artdıqca, yeni-yeni infrastruktur layihələri reallaşdıqca, ekoloqlarımızın qarşısında bunların təbiətə vurduğu zərəri heçə endirmək kimi məsul və mürəkkəb bir vəzifə dayanır.

Azərbaycan ekoloqları bütün imkanlarını vətəndaşların sağlam ətraf mühitdə yaşamasının təmin olunmasına yönəldirlər. Bu peşə sahiblərinin gördüyü işlər çətin, vacib və çoxşaxəlidir. Onların yerinə yetirilməsində hər birimiz bu gün peşə bayramını təbrik etdiyimiz ekoloqların yaxın dostu və köməkçisi olmalıyıq.

Təəssüf doğuran məqamlardan biri də budur ki, bəzi insanlar təbiətə yalnız maddi qazanc mənbəyi kimi yanaşır, meşələri ağac ehtiyatı, çayları sənaye tullantılarının axıdıldığı məkan, heyvanları isə sadəcə istifadə ediləcək canlılar kimi görürlər. Halbuki insan anlamalıdır ki, təbiət ona miras deyil, gələcək nəsillərdən alınmış əmanətdir. Bu əmanəti qorumaq hər bir insanın mənəvi borcudur. İnsanlar bu gün təbiəti düşünmədən məhv etməyə davam etsələr, gələcək nəsillər nə təmiz hava ilə nəfəs ala biləcək, nə saf su içə biləcək, nə də yaşıl meşələrin gözəlliyini görə biləcəklər...

*Yeganə BAYRAMOVA*


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5346
Sifariş: 665
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova